# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 03 (3419) Cümə axşamı / 20-26 yanvar 2022-ci il Qiymәti 40 qәpik


MÜSAHİB

## Bakı-Almatı: yanvar olayları



**Etibar Məmmədov**
AMİP lideri, istiqlalçı deputat

***AMİP lideri, istiqlalçı deputat Etibar Məmmədovla hafta.az üçün bu dəfəki söhbətimizdə 32 il öncəki 20 Yanvar olaylarıyla son Qazaxıstan olayları arasında bu günümüz üçün də ibrətamiz olan paralellər aparmağa, fərqli cəhətləri araşdırmağa çalışdıq.***

*Kənardan ordu dəvət etmək məsələsində 20 Yanvar və son Qazaxıstan hadisələri arasında oxşarlıq var...*


Səh. 2


# Qanlı 20 yanvar

***1990-cı ildə Sovet İttifaqının rus qoşunları hərbi hissələrinin törətdiyi 20 Yanvar qanlı faciəsindən 32 il ötür. Bu tarix Azərbaycanın tarix salnaməsinə qanla yazılsa da, xalqımızın müstəqillik, azadlıq əzmini sındırmadı... Sovet rus qoşunlarının Bakıda 32 il əvvəl törətdiyi "20 Yanvar" faciəsi Sovet İttifaqının Azərbaycana qarşı ən böyük cinayəti, qətliam aktı idi. Ötən 32 ildə qarşılaşdığımız tarixi haqsızlıq Azərbaycan gəncliyini hansı ideya ilə silahlandırmağa məhkum edir və biz nə edə bilirik? Müsahiblərimiz Milli Məclisin deputatı Fəzail İbrahimli, hüquq müdafiəçisi Çingiz Qənizadədir.***




## 32 il əvvəl yaşanan faciə



**■ Fəzail İbrahimli, Milli Məclisin sədr müavini:**

- Azərbaycan xalqı 20 Yanvar tarixini təkcə faciəli təqvim kimi yox, eyni zamanda, xalqın azadlıq uğrunda mübarizə tarixi kimi qeyd edir. 20 Yanvar faciəsi illərlə sovet imperiyası tarixində qol-qola verib böyük qələbələr çalan sovet insanının əxlaqına, şüuruna yad düşüncə kimi daxil olan Moskvanın yeritdiyi siyasət oldu. Biz II Dünya müharibəsində minlərlə insanımızı qurban verdik. Qələbənin əsas ilhamvericisi Azərbaycan nefti, xalqı oldu. Bütün bunlar imperiya tərəfindən ögey münasibətlərlə qarşılansa da, xalqımız bütün bunlara səbirlə yanaşdı.

> *Məlum oldu ki, bu imperiya Qorbaçovun ətrafında fırlanan ermənilərin istəkləri üzərində hərəkət edir*

Lakin Topxana meşəsində Azərbaycana qarşı olan haqsızlıq xalqı ayağa qaldırdı. Xalq meydana çıxdı, imperiyaya lənət oxudu və onun mahiyyəti uşaqdan-böyüyə qədər hər kəsə məlum oldu. Belə bir ərəfədə Moskvada Qorbaçovun apardığı uğursuz siyasət, eyni zamanda, sovet imperiyasını saxlayan və onun zəncirində ən zəif halqa olan milli münasibətlərə münasibət dəyişdi. Məlum oldu ki, bu imperiya xalqların dostluğu üzərində yox, Qorbaçovun ətrafında fırlanan ermənilərin istəkləri üzərində hərəkət edir. Beləliklə, "Dağlıq Qarabağ" problemi meydana gəldi və xalq Topxana hadisələrindən sonra monolit şəkildə birləşdi. Bu xalqı əzmək, eyni zamanda, "tərbiyə" edib, digər sovet respublikaları arasında "İmperiya güclüdür, Moskva bunun öhdəsindən gələ bilər", - xofu yaradılmalıydı. Xalqın iradəsi qırılmadı, dinc, əliyalın xalq tankların qarşısına çıxdı, böyük faciə yaşadı. Yanvar ayının 3-də Yazovun rəhbərliyi ilə Gəncədə iclas keçirildi, Bakıda olan nümayəndələr təlimatlandırıldı, hətta o planın həyata keçirilməsi üçün 20-ci ildə Cümhuriyyət hökumətini devirmək üçün hazırlanan plan da arxivlərdən çıxarıldı. Həmin planın adını "Tayfo" qoydular. Yanvarın 13-14-də dövlət təhlükəsizlik orqanları tərəfindən hazırlanmış təxribat baş tutdu, 2 azərbaycanlı erməni tərəfindən öldürüldü və nəticədə, bu xalqı qırmaq üçün şərait yarandı. Sumqayıtda məlum hadisələr törədildi. Bundan 2 saat sonra Fransa televiziyası yalançı reportaj verdi ki, "Azərbaycan erməniləri qırır". Bütün bunların hamısı eyni zəncirin ayrı-ayrı halqaları idi.

"20 Yanvar" hadisəsindən sonra imperiyaya qarşı özünün səsini qaldırıb, Azərbaycanın nümayəndəliyində hakimiyyəti ifşa edən, Qorbaçov siyasətinin mahiyyətini açan Heydər Əliyev məsələnin nədən ibarət olduğunu dünyaya bəyan etmişdi, hadisəni törədənləri lənətləmişdi.

Artıq tarixin ağır sınaqlarından çıxan gənclərimiz bu gün döyüş ruhu ilə Şuşanın dağlarını aşaraq əliyalın aldısa, bu, ideologiyanın hansı səviyyədə olduğunu göstərir. İdeologiya o zaman güclü olur ki, insanları qətiyyətə, hünərə, cəsarətə sövq edir.



**■ Çingiz Qənizadə, Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri:**

- Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuş 1990-cı il 20 Yanvar faciəsi müstəqilliyimizin bərpasının başlanğıcı, istiqlaliyyət yolunun zirvəsidir. Həmin gün azadlıq, istiqlaliyyət uğrunda küçələrə, meydanlara çıxan əliyalın insanlara qarşı törədilmiş ağlasığmaz terror aktı dəhşətli bir cinayət hadisəsi kimi tarixə düşüb. O gün dinc əhaliyə - müstəqillik istəyi ilə həmrəylik nümayiş etdirən insanlara qarşı həyata keçirilən cəza tədbirləri Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və bu sahədə qəbul olunmuş digər konvensiyaların müddəalarının kobud şəkildə pozulması demək idi. Artıq çökməkdə olan sovet rejimi son günlərində bütün tarixi ərzində törətdiyi cinayətlər sırasına misli görünməmiş bir vəhşilik aktı da əlavə etdi. Bu haqsızlığa etiraz edən xalqın səsini boğmaq üçün qanlı terrora əl atan sovet rejimi Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmətdə olan erməniləri respublikamızın üzərinə göndərdi. Sovet ordusu Azərbaycanın ovaxtkı rəhbərliyinin istəyi, SSRİ Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarı, eləcə də Mixail Qorbaçovun razılığı ilə şəhərə girmişdi. Həmin vaxt ölkəyə rəhbərlik edənlər bu dəhşətli hadisəni müxtəlif yalan və riyakarlıqla xalqdan gizlətməyə çalışırdı. Lakin hadisə baş verən günün ertəsi o vaxtlar Moskvada ciddi nəzarət altında olan Heydər Əliyev haqq səsini qaldırdı və bu faciə barəsində bütün dünyaya məlumat verdi. Bəli, qətliamı həyata keçirmiş sovet rejiminə qarşı ən kəskin bəyanatı o vaxt Moskvada yaşayan, təqib və təzyiqlərə məruz qalan ümummilli lider Heydər Əliyev verdi. Ulu Öndər yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi, dünyanın bütün kütləvi informasiya vasitələrinin nümayəndələri qarşısında SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi qırğını kəskin pislədi, bunu insanlığa, humanizmə sığışmayan hərəkət kimi qiymətləndirdi. 20 Yanvar hadisələri, eyni zamanda, beynəlxalq cinayət kimi də qiymətləndirilməlidir. XX əsrdə totalitarizmin törətdiyi ən qanlı terror aktları sırasında 20 Yanvar cinayəti də var. Bu, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu.

> *Şəhidlər Xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi qürur ünvanımızdır*

1990-cı ilin Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Bu qəhrəmanlıq səhifəsi yetişən gənc nəslin hərbi-vətənpərvərlik ruhunda böyüməsində mühüm rol oynadı. Vətən müharibəsində Ermənistan üzərində qazandığımız tarixi qələbə bütün şəhidlərimizin qisasını aldı. Şəhidlərin qanı yerdə qalmadı. Zəfərimiz ərazi bütövlüyümüzü bərpa etdi. Azərbaycan xalqı 30 ildən bəri gözlədiyi böyük qələbənin sevincini yaşadı. Şəhidlərimiz və Şəhidlər Xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillər üçün də qürur ünvanı olacaq.

MÜSAHİB



**Sərdar Cəlaloğlu,**
ADP sədri

■ Qazaxıstan ciddi problemlərlə üzləşib, uzun müddət orada iqtisadi sabitlik davamlı olmayacaq...

■ Rusiya bu sualı özünə verməlidir ki, niyə bütün xalqlar ondan qaçıb Avropa ilə əməkdaşlıq etmək istəyirlər...

■ Əgər Ermənistan Türkiyə ilə əlaqələr yaratmaq istəyirsə, kimsə də onu bu danışıqlara məcbur etməyəcək...


Səh. 3


GÜNÜN FOTOSU...



**İran prezidenti Kremldə namaz qıldı...**

GÜNÜN SİTATI

> *Əgər heykəl başqa bir formada olsaydı, onda da tənqidlər olacaqdı*



**Anar Kərimov,**
Mədəniyyət naziri

KARİKATURA



**Tağıyevin heykəlinə zərər vuranlara cinayət işi açıldı...**

## Dollar bahalaşarsa...

**Əli Əlirzayev,**
iqtisad elmlər doktoru

Manatın məzənnəsini inzibati yolla tənzimləmək hökumətə heç də ucuz başa gəlmir.


Səh. 6


STATİSTİKA



**■ Ötən ilin yanvar-noyabr aylarında qeydiyyat şöbələri tərəfindən 50 890 nikaha daxilolma və 15 659 boşanma halları qeydə alınıb.**

Dövlət Statistika Komitəsindən hafta.az-a bildirilib ki, əhalinin hər 1000 nəfərinə 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 3,5-dən 5,5-ə, boşanmaların sayı isə 1,5-dən 1,7-yə qədər artıb.




Səh. 7


## Karantin çağırışları

## PREZİDENTİN İŞ GÜNÜ



**Abdin Ələsgər oğlu Fərzəliyev Bakı şəhəri Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.**

Dövlət başçısının digər sərəncamı ilə, Abdin Ələsgər oğlu Fərzəliyev Abşeron Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

Dövlət başçısı həmçinin İradə Gülməmmədova Abşeron Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi barədə sərəncam imzalayıb.

# ABŞ Azərbaycanın prioritetlərini alqışlayır



***"Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumu ATƏT regionunda hərtərəfli təhlükəsizliyə töhfələr verib". Bunu ABŞ-ın ATƏT-dəki Nümayəndəliyinin rəhbəri, səfir Mişel Karpenter ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumunun Azərbaycanın sədrliyi ilə keçən ilk iclasında çıxışı zamanı deyib.***

O bildirib ki, bu ilin fevralında Forum 1000-ci sessiyasını keçirməyə hazırlaşdığı bir zamanda "Soyuq Müharibə"dən sonrakı dövrdə Avropa təhlükəsizliyinin ən kəskin böhranlarından biri yaşanır. "2008-ci ildə Gürcüstanı, 2014-cü ildə isə Ukrayna ərazisini işğal edən Rusiya bu gün Ukrayna ilə sərhəddə təxminən 100.000 əsgər toplayıb və bu qüvvələrinin sayı getdikcə artır.

Biz potensial olaraq həm təhlükəsizlik böhranının, həm də humanitar fəlakətin astanasındayıq. Buna görə də irəliyə doğru yol tapmaq nə qədər çətin olsa da, ABŞ etimadın yaradılması və münaqişə riskinin azaldılması üçün dialoqun davam etdirilməsinə tamamilə sadiqdir", - ABŞ diplomatı vurğulayıb.

Səfir Karpenter bildirib ki, ATƏT hərbi qüvvələrlə bağlı narahatlıqların müzakirəsi və hərbi şəffaflığın gücləndirilməsi, münaqişələrin aradan qaldırılması və etimadın möhkəmləndirilməsi üçün ən əhatəli məkandır: "ABŞ ümid edir ki, Rusiya diplomatiya və gərginliyin azaldılması yolunu seçəcək, öz qüvvələrini Ukraynadan geri çəkəcək və bütün 57 iştirakçı dövlətlə Avropa təhlükəsizliyini necə gücləndirəcəyini müzakirə etmək üçün bərabər səsə malik olduğu bu masaya oturacaq. Biz diplomatiyaya şans verməyə hazırıq. Cənab Sədr, Ukrayna münaqişəsi Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumunda olduğu kimi, həftəlik müzakirələrdə də əsas diqqət mərkəzində olacaq. Biz Azərbaycanın iş proqramını alqışlayır və əsas mövzular üzrə qarşıdan gələn təhlükəsizlik dialoqlarını gözləyirik. Təhlükəsizlik dialoqlarından bəziləri, məsələn, Avropa təhlükəsizlik arxitekturasında bloklara qoşulmayan ölkələrin rolu və Silahlara Nəzarət geniş Avropa Təhlükəsizlik Dialoqunu məlumatlandırmağa kömək edəcək".

ABŞ-n ATƏT-dəki səfiri qeyd edib ki, onun ölkəsi ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumunun 1000-ci plenar iclasının mövzusu olacaq Atıcı Silahlar/Yüngül Silahlar və Silah-Sursat Ehtiyatları (SALW/-SCA) üzrə ATƏT-in öhdəliklərini qətiyyətlə dəstəkləyir və ATƏT-in bu sahədə layihələrinin, eləcə də humanitar minatəmizləmə işlərində aparıcı donorudur:

"1993-cü ildən bəri Birləşmiş Ştatlar bütün ATƏT regionunda adi silahların məhv edilməsi təşəbbüsləri üçün 489 milyon dollar ayırıb ki, bu da ATƏT-in 16 iştirakçı dövlətində risk yaradan silah və sursatların təhlükəsiz şəkildə utilizasiyasına kömək edib. Beynəlxalq humanitar hüquq, terrorizm və münaqişədən sonrakı reabilitasiya üzrə təhlükəsizlik dialoqları Forumun mandatına uyğun olaraq təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsinə yönəldilməlidir".

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Bakı-Almatı: yanvar olayları

## Gündəm

***AMİP lideri, istiqlalçı deputat Etibar Məmmədovla hafta.az üçün bu dəfəki söhbətimizdə 32 il öncəki 20 Yanvar olaylarıyla son Qazaxıstan olayları arasında bu günümüz üçün də ibrətamiz olan paralellər aparmağa, fərqli cəhətləri araşdırmağa çalışdıq.***

***- Etibar bəy, hər ikisi, demək olar ki, sadəcə adları və ərazicə fərqlənən eyni imperiya tərəfindən körüklənmiş Bakıdakı 20 Yanvar 1990-cı il qanlı olaylarıyla son günlər Qazaxıstanda baş vermiş faciəli hadisələr arasında daha hansı paralelləri aparmaq olar?***

- Bu iki tarixi faciəli olay arasındakı paralel öncə ondan ibarətdir ki, hər iki hadisə xalqın hakimiyyətdən narazılığı fonunda baş verib. Ancaq fərq ondadır ki, Qazaxıstan artıq müstəqil dövlətdir.

Amma, təəssüf ki, ölkənin hazırkı rəhbərliyi daxili məsələlərin həlli, daha doğrusu, öz hakimiyyətini qorumaq üçün başqa dövlətlərin qoşunlarını dəvət elədi və bu vasitə ilə öz təhlükəsizliyini təmin etdi. Yəni kənardan ordu dəvət etmək məsələsində 20 Yanvar və son Qazaxıstan hadisələri arasında oxşarlıq var...

***- 1986-cı ilin dekabrında o vaxtkı Qazaxıstan paytaxtı Almatıda sovet ordusu tərəfindən törədilmiş və 600-dək qazaxın qətli ilə nəticələnmiş soyqırımı da, eyni ölkə ordusunun əməli olan 1990-cı ilin Yanvar qətliamı da Sovet İttifaqı imperiyasının çökməsinə təkan verən hadisələr oldu. Bəs bu il yanvarın əvvəlindəki Qazaxıstandakı qanlı olay faktiki olaraq Moskvanın patronajlığı altında fəaliyyət göstərən MDB-nin parçalanmasına təkan verə bilərmi?***

- Məsələ ondan ibarətdir ki, son Qazaxıstan olayları MDB-yə, xüsusən Kremlin rəhbərlik etdiyi KTMT kimi hərbi struktura üzv dövlətlərin dayanıqlığının zəif olmasını göstərdi. Yəni belə oliqarxik sistemlər, avtoritar idarəçiliyə malik quruluşlar çox kövrək olur və bu cür sistem və quruluşa malik ölkələrdə proseslər kiçik bir qığılcımdan dövlətlərin çökməsinədək gedə bilər. Və ona görə də həmin dövlətlərin rəhbərləri Qazaxıstan olaylarından nəticə çıxarmalıdırlar ki, bu cür qeyri-dayanıqlı ölkələrin birliyinin özü də dayanıqlı ola bilməz. O da aydın olur ki, bu dövlətlərin əksəriyyətini birləşdirən heç bir ümumi maraq yoxdur, onları yalnız keçmiş Rusiya imperiyasının maraqlarına uyğun olaraq birləşdiriblər. Və Rusiya rəhbərliyi də çalışır ki, sözügedən dövlətlərin hamısı məhz bu imperiyanın maraqlarına xidmət etsin. Ona görə də yaxşı ki, Azərbaycan Rusiyanın komandanlığıyla olan KTMT hərbi strukturunda iştirak etmir, həmin quruma qoşulmayıb...

***- Bu suala demək olar ki, qismən cavab verdiniz. Azərbaycanın 1990-cı ilin yanvarındakı rəhbərliyinin davranışları ilə Qazaxıstanın hazırkı hakimiyyətinin davranışları arasında daha hansı oxşarlığı görürsünüz?***

- Dediyim kimi, kənardan, xaricdən ordu dəvəti məsələsində oxşarlıq var. Ancaq digər məsələlərdə o qədər də oxşarlıq yoxdur. Çünki 1990-cı ilin yanvarında Azərbaycan rəhbərliyi heç bir qətiyyət göstərmədi, nə də hansısa bir təşəbbüs etdi və tamamilə özünü proseslərdən kənarlaşdırmaqla xalqımıza qarşı bu müdhiş cinayətin baş verməsinə şərait yaratdı və buna da göz yumdu. Bu minvalla da həmin rəhbərlik öz xalqına qarşı cinayətdə iştirakçı oldu...

Fərq ondadır ki, Tokayev qazax etirazçılara atəş açmağı öz silahlı qüvvələrinə əmr etdi. Sadəcə, onun həmin silahlı qüvvələrin hakimiyyətin tərəfində durub-durmayacağına o qədər də inamı yox idi. Ona görə də öz hakimiyyətini qorumaq, şəxsi təhlükəsizliyini və özünə, adamlarına aid olan obyektlərin təhlükəsizliyini təmin etmək üçün Rusiyaya müraciət etdi. Ancaq yaxşı ki, heç olmasa, səhvinin yarısından qayıtmağı bacardı...

***- 30 ilə yaxın Qazaxıstanı idarə etmiş Nursultan Nazarbayevin məlum qanlı olaylar ərəfəsində bir aya yaxın yoxa çıxdıqdan sonra, nəhayət, yanvarın 18-də xalqa müraciətini necə dəyərləndirirsiz?***

- Əvvəldən məlum idi ki, Nazarbayev hadisələrə birbaşa fikir bildirməyəcək, situasiyanın hansı istiqamətdə dəyişib-dəyişməyəcəyinə uyğun olaraq öz mövqeyini açıqlamağı gözləyəcək.

Ona görə də o, gözləmə mövqeyi tutdu. Tokayevlə Nazarbayev arasında danışıqlar getdi və təbii ki, ilk gündən eks-prezidentdən tələb olunurmuş ki, xalqa müraciət etsin. Lakin Nazarbayev də vəziyyətə müdaxilə etməməklə onu göstərməyə çalışırdı ki, mən olmayanda ölkəni idarə edə bilməzsiz. Ancaq Tokayev də göstərdi ki, Qazaxıstanı Nazarbayevsiz də idarə edə bilir. Ona görə də Elbası məcbur olub dedi ki, mən artıq təqaüdçüyəm və heç bir işə qarışmıram...

***- Üzərlərindən artıq 4-cü on illiyin keçməsinə baxmayaraq sovet dövründə 1986-cı il Almatı, nə də 20 Yanvar qətliamına əsl mənada hüquqi qiymət verilməyib, bu olayların əsl icraçı və təşkilatçıları qanunla cəzalandırılmayıb. Sizcə, bu gedişlə, son Qazaxıstan olaylarının təşkilatçı və icraçıları nə vaxt cəzasını alacaq?***

- Təəssüf ki, sovet dövründəki qətliamlarla bağlı vəziyyət belədir. Qazaxıstana gəldikdə, orada nə vaxtsa daxili araşdırma olacaq. Çünki hakimiyyət tərəfindən yüz minlərlə etirazçı barədə müxtəlif ziddiyyətli fikirlər səsləndi. Onları "xarici terrorçu", "cihadçı" və s. adlandırdılar. Digər tərfədən isə dedilər ki, aksiyaçıların hamısı içkili və nəşəli imiş. Onlar necə "cihadçı"-"islamçı" idilər ki, meydanlara içkili vəziyyətdə çıxmışdılar.

Yəni çox qarışıq məsələdir və təbii ki, belə qarışıq məsələdən də hakimiyyət öz rəqiblərini vurmaq üçün istifadə edəcək. Necə ki, Azərbaycandakı 20 Yanvar olaylarından da rəhbərlikdə olanlar müxalifətdəki rəqiblərini vurmaq üçün istifadə etməyə cəhdlər göstərdi.

Odur ki, Qazaxıstandakı son qanlı hadisələrin də ədalətli araşdırılması və təşkilatçıların, günahkarların, icraçıların cəzalandırılması da xeyli sürəcək...



**Etibar Məmmədov**
AMİP lideri, istiqlalçı deputat



*"Kənardan ordu dəvət etmək məsələsində 20 Yanvar və son Qazaxıstan hadisələri arasında oxşarlıq var...*



✍ ***Sultan Laçın***

# Şadlıq sarayları qiymətləri artırdı

**Koronavirus pandemiyasının dünya iqtisadiyyatına vurduğu zərbələrin özünü ən qabarıq şəkildə göstərdiyi bu günlərdə ölkədə müxtəlif fəaliyyət növlərində qiymətlər artan templə davam edir. Hazırda ərzaqların, yağın, çörəyin, bir sözlə, istehlak səbətinə daxil olan məhsulların satışı bahalaşıb.**



Bəs görəsən, yeni tariflər toy etmək istəyənlərə nə cür təsir göstərir? Bu gün restoranlarda menyuların qiyməti nə qədərdir? Gələcək aylarda şadlıq evləri qiymətləri nə qədər qaldıracaq?

Hafta.az məsələni araşdırmaq üçün bir sıra tanınmış şadlıq evləri ilə əlaqə saxladı. Əksər restoranların sahibkarları gələn aylarda qiymətlərin bir xeyli qalxacağını istisna etmir. "Gilavar" şadlıq sarayının məsul əməkdaşının sözlərinə görə, mart ayı üçün menyular 55, 65 və 75 manat təşkil edəcək. Hazırda isə həmin qiymətlər 45, 55 və 65 manatdır. Səbəb kimi isə ərzaq məhsullarının bahalaşması göstərildi.

"Royal" şadlıq sarayından verilən məlumata görə, hazırda menyuların qiyməti 32-35 manat arası dəyişir. Rəhbərlik bildirir ki, növbəti aylarda menyularda qiymət artımı qaçılmazdır:

"Biz əvvəllər ətin 1 kiloqramını 13 manata alırdıqsa, artıq bu qiymət 15 manat olub. Üstəlik, son vaxtlar tək bahalaşan ət də deyil. Çörəkdən tutmuş, bütün əsas qidaların hamısının qiyməti qalxıb. Ona görə biz istəsək də, istəməsək də növbəti aylarda şadlıq saraylarının menyularının da qiyməti qalxacaq". Digər məşhur restoran olan "Versal Palace"də də vəziyyət oxşardır. Burada mart ayı üçün qiymətlər zallara görə 55, 60 və 70 manat nəzərdə tutulub. Hazırda isə tort, musiqi və dəvətnamə də daxil olmaqla, bu menyular 5 manat endirimlə müştərilərə təklif edilir. Növbəti aydan qiymətlərin qalxması da ilk olaraq ərzaq məhsullarının bahalaşması ilə bağlıdır:

"İndi hər şeyin qiyməti qalxıb, vəziyyət çətindir. Mart ayında nəzərdə tutduğumuz menyuya indi daxil olan tort, musiqi və dəvətnamə kimi şeylər salınmayıb".

■ **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə deyir ki, bahalaşma ilə bağlı hər gün ölkənin müxtəlif bölgələrindən azı 2-3 zəng qəbul edir. Bu sahədə qalxan qiymətləri tənzimləmək mümkünsüzdür:** "İstehlakçılar bilməlidirlər ki, restoranlarda qiymətlər sərbəstdir. Lüləkabab bir yerdə 3 manat olduğu halda, digərində 15 manat ola bilər. Heç bir dövlət orqanı buna nəzarət etmir. Nazirlər Kabinetinin 94 saylı qərarına görə bu sahədə xidmət göstərən istənilən yerdə menyu olmalıdır. Həmin menyuda malın çəkisi və qiyməti yazılmalıdır. Hətta bəzilərndə kalori dəyəri də göstərilir. İstehlakçı seçimdə sərbəstdir və bundan narazı qalmamalıdır".

■ **İqtisadçı ekspert Fuad İbrahimov hesab edir ki, şadlıq evlərində baş verən bahalaşmanı "süni qiymət artımı" adlandırmaq düzgün deyil. Qiymətlərin artmasına əsaslı səbəblər var:** "Ola bilər ki, hazırda restoranların menyusunda göstərilən yeməklərin çoxunun tərkibində işlənən məhsullar bahalaşmayıb, yaxud da mövsümi meyvə-tərəvəzlərin qiyməti sabitdir. Nəzərə almaq lazımdır ki, ilboyu yanacağın və kommunal xidmətlərin qiyməti qalxıb. İaşə obyektləri də məhz bu komponentlərdən istifadə etməklə fəaliyyətini həyata keçirir. Ətin qiyməti hələ də əvvəlki ilə eynidir deyə, menyu bahalaşmasın. Axı burada başqa amillər də var. Bütün bunlar nəzərə alındıqda restoranlarda qiymətlərin artması təəccüblü deyil. Həmçinin belə vəziyyətdə süni qiymət artımından da danışmaq yersiz olardı".

*"İstehlakçılar bilməlidirlər ki, restoranlarda qiymətlər sərbəstdir*

*Bütün bunlar nəzərə alındıqda restoranlarda qiymətlərin artması təəccüblü deyil*

✍ ***Banu***

# “Azərbaycan üçtərəfli bəyanatdan çıxmalıdır”

## Müsahib

**44 günlük müharibə regionun geosiyasi vəziyyətini yeni mərhələyə daşıdı. Cənubi Qafqazda baş aktor kimi gərginliyin önündə dayananlar sırasında daha çox Rusiyanın adı çəkilir. Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi, sərhədlərin müəyyənləşməsi, erməni silahlılarının ərazidən çıxarılması, Ermənistanın sülh müqaviləsinə imza atıb revanşist siyasətindən əl çəkməsi ilə bağlı üçtərəfli sazişə əsasən götürdüyü öhdəliklərin həlli uzandıqca, məsələlərin daha mürəkkəb məcraya yönəldiyi müşahidə olunur. Bu və ya digər məsələlərlə bağlı “Həftə içi”nə müsahibə verən ADP sədri Sərdar Cəlaloğlu maraqlı məqamlara toxunub.**



**Sərdar Cəlaloğlu,**
ADP sədri

***- Sərdar müəllim, məlum olduğu kimi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının hərbi qüvvələri Qazaxıstandan çıxır. Rusiya KTMT adı altında Qazaxıstana ordu yeritməklə hansı prosesi önlədi və bu prosesin regiondakı Türk Dövlətləri Birliyinə təsiri nə oldu?***

- Əvvəla, onu deyim ki, Rusiyanın Qazaxıstana daxil olması Türk Dövlətləri Təşkilatına qarşı bir addım idi. Eləcə də Nazarbayevin Qazaxıstanda apardığı ardıcıl siyasətə qarşı Rusiyanın əks, sərt davranış nümayiş etdirdi. İkincisi, bu, Ukrayna məsələsində Rusiyanın daha üstün mövqedə olmasını saxlayacaq bir hərəkət idi. Rus qoşunları Qazaxıstana girməklə bir daha bəşəri cinayət törətdilər, etiraz mitinqlərində dinc insanları güllələyib, öldürüb, həbs ediblər. Mənə elə gəlir ki, qazax xalqı Rusiyanı Qazaxıstanda törətdiyi cinayətlərə görə Beynəlxalq Məhkəməyə verməlidir. Bununla yanaşı, düşünmürəm ki, rus qoşunları bu ölkədən tamamilə çıxarılıb. Belə təəssürat yaratmaq istəyirlər. Rusiya uzun müddət Qazaxıstanda siyasi proseslərə təsir etmək imkanlarını əlində saxlayacaq. Eləcə də Qazaxıstan hadisələri indiki halda Türk Dövlətləri Təşkilatının fəaliyyətinə çox ciddi təsir edib. Tokayev rusyönümlüdür. Proseslərin inkişafından, gələcəyindən çox şey asılıdır. İndiki halda Qazaxıstan ciddi problemlərlə üzləşib, uzun müddət orada iqtisadi sabitlik davamlı olmayacaq. Bu gün bu proseslərin qazax xalqının milli şüurunun oyanmasına təsir göstərməsi faktı da önə çəkilir. Deyə bilərəm ki, bu xalqın milli şüuru çoxdan oyanıb. Sadəcə olaraq, qazaxlar bir qədər ətalətlidirlər, amma çeçenlərdən də qatıdırlar. Yəni ola bilər ki, hadisələrə gec reaksiya versinlər, amma cavabları həddən artıq kəskin olacaq. Hələ yaraları istidir, camaat ölülərini axtarır. QHT-lərin verdiyi məlumata görə, orada ölənlərin sayı 2 mindən artıqdır. Rəsmi məlumata görə, 250 nəfərdir, həbs olunanların böyük əksəriyyəti ağır yaralıdır. Yəni Qazaxıstanda açıq-aşkar qırğın həyata keçirilib.

*Qazaxıstan ciddi problemlərlə üzləşib, uzun müddət orada iqtisadi sabitlik davamlı olmayacaq*

***- Rusiyanın Ukrayna ilə münasibətləri gərginləşib. Moskva öz diplomatlarını Ukraynadan çıxarır. Müharibə başlaya bilərmi?***

- Rusiya Ukrayna ilə müharibəyə başlayacağı təqdirdə çox ciddi şəkildə uduzacaq. İnanmıram ki, Rusiya müharibə etsin. Bu prosesdə bütün sülhpərvər dövlətlər Ukraynaya dəstək olacaqlar. Ukrayna elə bir səddir ki, ruslar onu keçəcəyi təqdirdə, Fransa, Almaniya üçün təhlükə yarada bilər. Ona görə də bu müharibə Rusiya üçün asan olmayacaq.

***- Sizcə, məhz belə bir ərəfədə Prezident İlham Əliyevin Ukraynaya səfərinin əhəmiyyəti nədir?***

- Bu səfər Qazaxıstan məsələlərinə görə Rusiyaya bir mesajdır. Eyni zamanda Ukraynanın 44 günlük müharibədə ölkəmizə verdiyi dəstəyə görə bir vəfa səfəridir. İndiki halda Ukrayna ən ağır vəziyyətini yaşayır və Azərbaycanın Ukrayna ilə belə sıx əlaqələr yaratması adi məsələ ola bilməz. Açığı, mən İlham Əliyevin indiki məqamda Ukraynaya səfərini çox yüksək qiymətləndirirəm. Verilən bəyanatları da düzgün hesab edirəm. Azərbaycan Krımı tanımadı, Ukrayna ilə enerji müqavilələri imzaladı. Ukrayna-Moldova-Gürcüstan arasında GUAM-ın yenidən aktivləşdirilməsinin zəruri olduğunu qeyd etdi. Yəni orada verilən bəyanatlar Rusiyanın Ukrayna siyasətinin tam əleyhinədir. Bu səfər, elə bilirəm ki, Rusiyanın Qazaxıstana girməsinə İlham Əliyevin və Türkiyənin verdiyi cavab idi. Hə, dərhal sual yaranır: Rusiyanın bizə cavabı nə olacaq? Unutmayaq ki, Rusiya zatən Qarabağda apardığı oyunlarla Azərbaycana qarşı çoxdan əks çıxışlar edir. Rusiya indi də özünün sülhməramlıları ilə bizə qarşı düşmənçiliyini aparır.

***- Sərdar müəllim, Brüssel Rusiyanın NATO-nun Şərqə genişlənməklə bağlı zəmanət istəməsinə münasibətini bildirərkən bəyan edib ki, NATO-nun qapısı açıq olacaq. Biz istəmirik ki, Rusiya Prezidenti Putin qapıçı olsun...***

- Əgər Rusiya keçmiş SSRİ respublikalarından, Şərqi Avropa ölkələrindən belə bir zəmanət istəyəcəksə, ilk növbədə, özü digər ölkələrin təhlükəsizliyini pozmayacağına təminat verməlidir. Yoxsa ildə bir dəfə Qarabağı, Gürcüstan ərazisini işğal edəcəksə, Kırımı, başqa ölkələrin ərazisini işğal edəcəksə, ona necə təminat verilə bilər və o, necə özü üçün NATO-dan belə bir zəmanət istəyə bilər?!. Ona görə də heç kəs Rusiyaya zəmanət verməməlidir.

Rusiya bir şeyi başa düşməlidir ki, ya beynəlxalq hüquqa uyğun yaşamağı bacarmalıdır, ya da gec-tez Rusiya dövləti mövcud olmayacaq. Baxın, Putinin apardığı siyasət nəticəsində bütün xalqlar Rusiya ilə düşməndir. Xüsusən də türk xalqları. Qazaxıstana, Ukraynaya, Gürcüstana, Moldovaya müdaxilə edib, Pribaltikanı hədələyir, ordan Yaponiya, burdan Çinlə vəziyyəti gərgindir. Sən nəyə görə elə siyasət aparırsan ki, bütün xalqlar sənə nifrət eləsin. Ondansa beynəlxalq hüquqa uyğun siyasət apar və qoy hamı səninlə dost olsun. Deməliyəm ki, Rusiyanın ziyalıları, demokratik insanlar, sabiq generalları və sair, Putinin siyasətini açıq şəkildə ziyanlı hesab edir, rus dövlətinin, xalqının maraqlarına xidmət etmədiyini deyirlər.

Son vaxtlar Rusiyada çox ciddi müxalifət hərəkatı meydana çıxıb və getdikcə güclənir. Bu sırada Novalnı və onun tərəfdarlarını qeyd edə bilərik. Məsələn, axırıncı seçkilərdə Rusiyanın əksər şəhər və kəndlərində Putinə olan etirazlar onu göstərdi ki, rus xalqı da yavaş-yavaş oyanır.

Digər tərəfdən, sizin sualınızda NATO-dan Rusiyaya verilən məlum mesajda deyilir ki, “qapı açıqdır”sa, Rusiya da gəlib ona üzv ola bilər. Eləcə də Putini bir “qapıçı” kimi dövlətlərin NATO-ya üzv olmasına maneə yaratmamağa çağırıblar.

Axı, Ukrayna müstəqil dövlətdir və o, NATO-ya daxil olmaq istəyirsə, sən ona maneə ola bilməzsən. Axı sən yaxşı olsaydın bütün dövlətlər səndən qaçmazdı. Rusiya bu sualı özünə verməlidir ki, niyə bütün xalqlar ondan qaçıb Avropa ilə əməkdaşlıq etmək istəyirlər.

***- Türkiyə-Ermənistan arasında danışıqlar başladı. Perspektivi necə görünür?***

- Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları var və torpaqların bir qismi hələ ki, suveren deyil. Türkiyəyə qarşı da soyqırım iddiası və ərazi iddiaları yer alır. Ermənistanın öz konstitusiyasından “soyqırımı” iddiasını çıxarması, ərazi iddilarından əl çəkməsi, sərhədlərin delimitasiya və demorkasiya prosesini uzatmaması, Zəngəzur dəhlizinin açılmasına maneə yaradılmaması və sair məsələlər danışıqların predmetidir. Bu gün Ermənistan düşmənçilik siyasəti yeritdiyi halda Türkiyə-Ermənistan münasibətləri normal inkişaf edə bilməz. Əgər Ermənistan Türkiyə ilə əlaqələr yaratmaq istəyirsə, kimsə də onu bu danışıqlara məcbur etməyəcək. Türkiyənin buna ehtiyacı yoxdur. Türkiyə Ermənistandan asılı deyil, Ermənistan Türkiyədən asılıdır. Ermənilər istəyir ki, Türkiyə ilə sərhədləri açsınlar və onların hesabına inkişaf eləsinlər. Ermənistan İstanbulun bir küçəsi boydadır. Elə Türkiyənin bir futbol komandasının büdcəsi Ermənistanın dövlət büdcəsindən iki dəfə çoxdur.

Ona görə də Ermənistan qonşu dövlətlərlə normal əlaqələr qurmaq istəyirsə, özü də buna çalışmalı və revanşist iddialarından əl çəkməlidir. Əgər Rusiya kənara çəkilərsə, Ermənistanda sağlam qüvvələr mövqe ortaya qoyacaqsa əlbəttə ki, müsbət addımlar atılacaq. Əks halda nəticələri Ermənistan üçün üçün ağır olacaq. Yenə ermənilər uduzacaq.

*“Rusiya bu sualı özünə verməlidir ki, niyə bütün xalqlar ondan qaçıb Avropa ilə əməkdaşlıq etmək istəyirlər*

*Əgər Ermənistan Türkiyə ilə əlaqələr yaratmaq istəyirsə, kimsə də onu bu danışıqlara məcbur etməyəcək*

***- Yanvarın əvvəlindən sərhədlərin delimitasiyası, demarkasiyası ilə bağlı Ermənistanla Azərbaycan arasında birgə komissiya yaradılmalı idi. Amma gecikir. Belə olduğu halda Ermənistanı öz öhtəliklərini yerinə yetirməyə kim məcbur edəcək?***

- Rusiya buna imkan vermir. Əgər sərhədlərin delimitasiyası, demorkasiyası tezliklə baş verərsə, o zaman rus sülhməramlıları Qarabağdan çıxmalı, Ermənistan sülh müqaviləsi imzalamalıdır. Ona görə də Rusiya imkan vermir ki, bu komissiya yaransın, toplantılar keçirilsin. Ordan da bəyanat verir ki, sərhədlərin müəyyənləşməsinin Qarabağa aidiyyatı yoxdur. Necə yəni aidiyyatı yoxdur?! Qarabağ Azərbaycan sərhədləri daxilində deyil?! Açıq şəkildə görünür ki, Rusiya Azərbaycanla-Ermənistanın münasibətlərin tənzimlənməsinə, sərhədlərinin müəyyənləşməsinə imkan vermir. Üçtərəfli bəyanata əsasən bu öhdəliklər kimisə məcbur etmədən yerinə yetirilməlidir. Əgər Rusiya və Ermənistan üçtərəfli bəyanatı yerinə yetirmirsə Azərbaycan o bəyanatdan çıxmalıdır. Biz sadəcə Rusiyanın vasitəçiliyindən imtina edə bilərik. Və imtina eləməliyik. Çünki Rusiya heç bir öhtəliyini yerinə yetirmir.

***- Sərdar müəllim, Milli Məclisə boş qalan deputat yerlərinə seçkilər keçiriləcək. Siyasi partiyalar bu seçkidə necə iştirak edəcək, seçki məcəlləsində hansı dəyişikliklə ehtiyac var?***

- Siyasi partiyalar bu seçkilərdə iştirak edəcəklər. Bizim partiya da bu məsələni müzakirə edib və qərar qəbul edilib. Şəxsən mən özüm o seçkilərdə iştirak etməyə meyilli deyiləm. Konstitusiyada dəyişiklik edilməli və proporsional seçki sistemi yenidən bərpa edilməlidir. Yalnız o halda Azərbaycanda real siyasi güclər parlamentdə təmsil oluna bilər.

✍ ***Tahirə Qafarlı***



## Aktual

# Parlament rus sülhməramlılara status verməməlidir

***Azərbaycanın düşmən üzərində 44 gün ərzində əldə etdiyi hərbi zəfərindən sonra Rusiya, Ermənistan və Azərbaycan rəsmilərinin imza atdığı üçtərəfli atəşkəs sazişinə əsasən Qarabağda yerləşən rus sülhməramlı kontingenti məğlub işğalçı dövlətin silahlı tör-töküntülərini ərazilərimizdən çıxarmalı, regionda münaqişə yaradan halların baş verməsinə imkan verməməli, Ermənistanla sərhədlərin delimitasiya, demorkasiya prosesini həyata keçirməli, məğlub işğalçını sülhə məcbur etməli idi. Görünən isə odur ki, Rusiya sülhməramlıları Qarabağda özünün qeyri-qanuni, özbaşına fəaliyyəti ilə region üçün yeni problemlər yaradır.***

Rusiya sülhməramlıları ilə bağlı neqativlərin yüksək tribunadan səslənməsi əbəs deyil. Əgər bu gün sülhməramlılar Qarabağdan çıxan yük maşınlarını ciddi şəkildə yoxlayıb ermənilərin oradan çıxmasına imkan vermirlərsə, yaxud xarici ölkə vətəndaşlarının Qarabağa qanunsuz səfərləri təşkil olunursa, burada hansı maraq güdülür? Bu cür məqamların aradan qaldırılması üçün hansı addımlar atılmalıdır? Bu vəziyyət sülhməramlıların statusu ilə bağlı məsələni nə dərəcədə aktuallaşdırır?

■ **Politoloq Natiq Cəfərli hafta.az-a şərhində bildirib ki, Azərbaycan parlamenti rus qoşun hissələrinin Qarabağda yerləşdirilməsini heç vaxt legitimləşdirməməlidir. Onun fikrincə, sülhməramlılara hər hansı statusun verilməsi doğru deyil və bu istiqamətdə hansısa parlament qərarına ehtiyac yoxdur.** N.Cəfərli bu prosesdə Rusiyanın məramının aydın olduğunu qeyd edib. Onun sözlərinə görə, Rusiya Azərbaycanla Ermənistanın zatən anlaşacağını düşünür və hesab edir ki, bu zaman rus sülhməramlılarının Xankəndi ətrafında qalmasının mənası itəcək.

“Ona görə də Rusiya Qarabağdakı qondarma qurumu de-fakto tanıyıb ermənilərin ordan köçməsini əngəlləyir. Belə ki, onlara iş yerləri yaradır, sosial problemlərini həll edir ki, heç olmasa 25-30 min ermənini Qarabağda saxlayıb gələcəkdə “təhlükəsizliyini qorumaq” adı altında regionda qalmalarına hüquqi don geyindirsinlər. Ən təhlükəli məqam ondan ibarətdir ki, Azərbaycanla Ermənistan anlaşsa rus sülhməramlılara ehtiyac qalmasa və yaxud da Azərbaycan çıxarılmasını tələb etsə, de-fakto tanıdığı qondarma qurumu sabah de-yure-Abxaziya, Osetiya kimi tanıya bilər. Biz yaxın 3 ildə çalışmalıyıq ki, sülhməramlıların regionda qalışı ilə bağlı səbəbləri tamamilə aradan qaldırmaq üçün Rusiya ilə danışıqlar aparaq. Eyni zamanda erməniəsilli Azərbaycan vətəndaşlarının Azərbaycan qanunlarına inteqrasiya edilməsi üçün proqram sənədləri təqdim etməliyik. Rusiya erməniəsilli dinc vətəndaşların Azərbaycanın özünə inteqrasiya olunmasını istəmir. Biz bu məsələlərin həllində Rusiya ilə ortaq dil tapmağa çalışmalıyıq.

İndiki dünyada Rusiyanın aqressivləşdiyi, ətraf bölgələri özünün “arxa bağçası” hesab etdiyi bir dövrdə Rusiyaya hansısa ültimatumların verilməsinə lüzum görmürəm. Amma sülhməramlılara hüquqi status verilmir, 2025-ci ilin may ayına qədər parlament tərəfindən həmin qoşunların bölgədən çıxarılması ilə bağlı qərar verilə bilər. Buna hazırlıq görmək üçün 2 il yarım ərazində Azərbaycan özünün daxili, xarici siyasətini daha güclü təməllər üzərində icra etməlidir”.

N.Cəfərli bildirir ki, Rusiyanın məqsədi bir ömürboyu bölgədə qalmaqdır. Onun fikrincə, Rusiya bunun üçün də əlindən gələni edir, bütün təxribatları, addımları buna hesablanır.

“Azərbaycan texniki, diplomatik, hərbi yolla alternativ addımların atılmasını sürətləndirməlidir. “Laçın dəhlizi” adı altında fəaliyyət göstərən yeni yolun çəkilməsi, onun Azərbaycan tərəfindən nəzarətdə saxlanması, orada Azərbaycan postlarının, sərhəd -keçid məntəqələrinin qurulması həyata keçirilməlidir. Bu Azərbaycanın suveren hüququdur. Rusiya beynəlxalq hüquqa əsasən burada heç bir addım ata bilməz. Azərbaycan hüququn üstünlüyünü əldə rəhbər tutaraq, dayanıqlı siyasət yürüdərək, daxildə sistemin daha yaxşı çalışmasını təmin edərək, xarici müdaxilələrə rəvac vermədən bu addımları atmalıdır. Görək Rusiyanın təklifi nə olacaq. “Laçın dəhlizi” Azərbaycanın ərazisində daxildir və orda sərhəd-keçid məntəqələri qoymağa, prosesə nəzarət etməyə qanunla borcluyuq”.

■ **Politoloq Əli Mustafa hafta.az-a şərhində bildirir ki, sülhməramlıların statusu mütləq beynəlxalq hüquqa uyğun tənzimlənməlidir. Rusiya sülhməramlıları bölgədə istədiyi kimi hərəkət edə bilməz. “Rusiyanın sülhməramlı adı ilə Azərbaycanda və digər rayonlardakı siyasəti göstərir ki, onlar beynəlxalq hüququn tələbindən çıxış etmir.**

Rusiya özünün geopolitik maraqlarını önəmsiyərək hərbi hissələrini istədiyi yerdə, istədiyi kimi yerləşdirir. Bu qüvvələr qonşu dövlətlər tərəfindən sülhməramlı kimi qəbul edilsə də, beynəlxalq standartlar gözlənilmir”. Politoloq bildirir ki, sülhməramlıların Azərbaycandakı fəaliyyəti ilə bağlı kifayət qədər ciddi nöqsanları var. Onun fikrincə, bu kontingentin əhali arasında narahatlıq yaratdığını, Azərbaycan cəmiyyətinin əhəmiyyətli hissəsinin sülhməramlılara qarşı narazılığına diqqət çəksək, Rusiya sülhməramlıları mütləq ona göstərilən çərçivəyə sığmalıdır.

*“Rusiya Qarabağdakı qondarma qurumu de-fakto tanıyıb ermənilərin ordan köçməsini əngəlləyir*

*Sülhməramlıların Qarabağda qaldığı 3 il müddətində dünyada nələrin baş verəcəyini bilmirik*

“Təbii ki, əhali rus kontingentinin olmasını istəmir və dövlətin əsas qanunverici strukturları, konkret parlament də sülhməramlıların statusunu müəyyən etməyib. Üçtərəfli razılaşmada BMT-nin iştirakı, qaçqınların köçürülməsi nəzərdə tutulurdusa, bu məsələlər də özünün həllini tapmır. Konkret faktlar var ki, sülhməramlılar Azərbaycanın ərazi bütövlüyünün tənzimlənməsini, sərhəd toxunulmazlığını, eləcə də, xarici vətəndaşların əraziyə qeyri-qanuni gəlməsini təşkil etməklə beynəlxalq hüququ pozurlar. Dolayısı ilə Azərbaycan özünün ərazi bütövlüyünə nəzarət etmir. Bu da beynəlxalq hüququn fundamental əsas prinsiplərinin pozulmasıdır”. Ə.Mustafa hesab edir ki, Azərbaycan tərəfindən Rusiya sülhməramlıları ilə bağlı səslənən fikirlər, Rusiya sülhməramlılarının müəyyən bir çərçivəyə dəvət edilməsidir. “Azərbaycanın müəyyən qurumlarının “Laçın dəhlizi”ndə iştirakı təmin olunmalıdır. Sülhməramlıların Qarabağda qaldığı 3 il müddətində dünyada nələrin baş verəcəyini bilmirik. Bütün hallarda hesab edirəm ki, Rusiya hərbçiləri bölgədən çıxmalıdır. Əlbəttə ki, o vaxta qədər Ermənistan-Azərbaycan münasibətləri də dəyişməli, danışıqlar aparılmalıdır. Biz dinc-yanaşı yaşamağa öyrənməliyik, Rusiya sonsuza qədər burada qalan deyil”. Politoloq bildirir ki, Rusiya sülhməramlıları beynəlxalq hüququn müəyyənləşdirdiyi çərçivəyə sığmır. Rusiya özünün hərbi potensialından, güc faktorundan hüququ pozaraq istifadə edir. “Belə bir şəraitdə Azərbaycan özü BMT ilə əməkdaşlıq etməli və Rusiya ilə danışmalıdır. Rusiyanın burdakı hərbi hissələri bizimlə razıaşdırılmaqla fəaliyyət göstərməlidir. Rusiya eyni zamanda beynəlxalq hüquq normalarına uymalıdır, sülhməramlıların statusu müəyyənləşməlidir. Sülhməramlıların mandatının hədləri məyyənləşməlidir ki, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə xələl gəlməsin”.

✍ ***Tahirə***

# Azərbaycanda geoparklar yaradılır

## Layihə

***Yaxın gələcəkdə Azərbaycanda geoparkların yaradılması nəzərdə tutulur. Hazırda bu istiqamətdə müvafiq iş aparılır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis müavini Arzu Səmədovanın sözlərinə görə, ölkədə palçıq vulkanlarına geopark statusunun verilməsi, həmin vulkanların tərkibində geoparkların yaradılması ilə bağlı işlərə başlanılıb, əsasnamə təsdiqlənib: "Geopark həm də UNESCO-nun mühafizə olunan kateqoriyalarından biridir. Təbii irs siyahısına salınması istiqamətində də işlər görüləcək. Hazırda geoparkların irs siyahısına daxil edilməsi üçün nominasiya sənədi hazırlanma mərhələsindədir.***



Növbəti illərdə ölkədə geopark xüsusi mühafizə olunan təbiət ərazisi kimi fəaliyyətə başlayacaq". O vurğulayıb ki, palçıq vulkanlarına geopark statusu verildikdən sonra orada geoturizmin fəaliyyətinə icazə veriləcək. Bununla bağlı qanunvericiliyə müvafiq dəyişiklik edilib. A.Səmədova qeyd edib ki, hazırda geoparkların yaradılacağı ərazilərin seçilməsi istiqamətində işlər aparılır: "2020-ci ildə yerli və xarici mütəxəssislə birgə vulkan olan ərazilərə baxış keçirilib və təkliflər hazırlanıb. Təkliflər tam hazır olduqdan sonra artıq geoparkların yaradılması istiqamətində işlərə başlanılacaq. Təkliflərdə paytaxta yaxın, geoloji quruluşuna görə unikal palçıq vulkanlarına daha çox üstünlük verilib".

Məlumat üçün xatırladaq ki, hüdudlarında mühafizəsi tələb olunan təbiət irsinə aid nadir geoloji və geomorfoloji obyektlər (geosaytlar) saxlayan, Yer təkinin təkamülü, yerli landşaftların formalaşması, süxur və faydalı qazıntı yataqlarının əmələgəlmə tarixini açıqlayan, həmçinin tarixi abidələri və biomüxtəlifliyi ilə fərqlənən xüsusi mühafizə statusuna malik region geopark adlanır. Bu cür ərazidə yerli əhalinin yaşayış tərzinin toxunulmazlığı təmin edilir, təsərrüfat və rekreasiya fəaliyyətinə imkan verilir. Geoparkların yaradılması istiqamətində beynəlxalq səviyyədə 1991-ci ildən başlayaraq ardıcıl addımlar atılıb. 1996-cı ildə Pekində keçirilmiş 30-cu Beynəlxalq Geoloji Konqresin geoloji irsin qorunub saxlanılmasına həsr edilmiş simpoziumda ilk dəfə geoparkların yaradılması təşəbbüsü irəli sürülüb. 2000-ci ilin iyun ayında 4 geoparkın daxil olduğu Avropa Geoparklar Şəbəkəsi (AGŞ) təsis edilib. 2002-ci ildən etibarən UNESCKO-nun Milli Geoparklar üzrə Ümumdünya Şəbəkəsinin yaradılmasına dəstək Proqramı (Global Network of National Geoparks) fəaliyyətdədir. 2004-cü ilin fevral ayında UNESCKO-nun Baş ofisində 17 Avropa və 8 Cin geoparkının daxil olduğu Qlobal Geoparklar Şəbəkəsi yaradılıb. Hazırda dünyanın 35 ölkəsində 300-dən çox geopark fəaliyyət göstərir.

Son illər Azərbaycanda da bu istiqamətdə ardıcıl işlərə başlanılıb. 2020- ci ildə Prezident İlham Əliyevin imzaladığı fərmanla "Azərbaycan Respublikasının geoloji parkları haqqında ümumi Əsasnamə" təsdiqlənib. Əsasnaməyə əsasən, geoloji park xüsusi geoloji, coğrafi, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət obyektlərinin yerləşdiyi təbiəti mühafizə, maarifçilik, elmi, mədəni, turizm və digər məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi müəssisə, yaxud təşkilat statuslu ərazidir. Geoloji parkın ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazidə olan torpaq, su, bitki və heyvanlar aləmi onların daimi istifadəsinə verilir. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının ərazisində beynəlxalq əhəmiyyətli geoloji parklar müəyyən edə bilər. Geoloji parkların hüdudlarında yerləşən torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin torpaq sahələrindən Torpaq Məcəlləsi, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" qanun və bu Əsasnamə ilə müəyyənləşdirilmiş hüquqi rejimə riayət etməklə istifadə olunur. Təbiəti mühafizə, geoloji və coğrafi təbiət obyektlərini, nadir və etalon təbiət ərazilərini, geoloji irsi qoruyub saxlamaq şərtilə, geoloji parklardan elmi tədqiqat, mədəni-maarif və tədris tədbirləri, geoloji monitorinq, sağlamlaşdırma, təlim-tərbiyə, turizm və rekreasiya məqsədləri üçün istifadə edilə bilər. Geoloji parklarda onların məqsədli təyinatına, təbiət komplekslərinin və obyektlərin mühafizəsi, bərpası və istifadəsi üzrə müəyyən edilmiş tələblərə zidd olmayan şərtlərlə başqa fəaliyyət növləri həyata keçirilə bilər.

*"Bu addımın atılması ölkəmizdə geoturizmin inkişafına imkan yaradacaq*

Geoloji parkların təbiət qoruğu fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, onların ərazilərinin perspektiv inkişaf şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrını aparır. Geoloji parklar xüsusi geoloji, coğrafi, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət obyektlərinin yerləşdiyi və təbiəti mühafizə, maarifçilik, elmi, mədəni, turizm və digər məqsədlər üçün istifadə olunan ərazilərdə yaradılır. Geoloji parklar Nazirlər Kabinetinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılır. Geoloji parkların torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədilə onların sanitariya-mühafizə zonaları müəyyən edilir. Geoloji parkların hər biri üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi pasport hazırlayır. Pasportda geoloji parkın adı, yerləşdiyi yer, yaradılma tarixi, əhəmiyyəti, torpaqdan daimi istifadə hüququna dair hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın seriyası və nömrəsi, mühafizə olunan ərazinin xüsusiyyətləri, onun ümumi görünüşünün sxemi, ərazisində müəyyən edilən fəaliyyət zonaları, xüsusi qorunan geoloji abidələr, fəaliyyət prosesində aparılan dəyişikliklər barədə qeydlər öz əksini tapmalıdır. Pasport Nazirlikdə dövlət qeydiyyatına alınmaqla geoloji parklarda saxlanılır. Geoloji parkların ərazisi və obyektləri hər hansı fiziki və ya hüquqi şəxsin hüquq və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur və özgəninkiləşdirilə bilməz. Geoloji parkların fiziki və hüquqi şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilməsi qadağandır. Elmi, mədəni, tədris, turizm və rekreasiya, məhdud təsərrüfat məqsədləri üçün geoloji parkların ərazilərindən fiziki və hüquqi şəxslərin istifadəsi ödənişli əsaslarla həyata keçirilir. Geoloji parkların mühafizə rejiminin pozulmasında təqsirli olan şəxslər İnzibati Xətalar və Cinayət məcəllələrinə uyğun olaraq məsuliyyət daşıyırlar.



**Tələt Kəngərli**
AMEA-nın müxbir üzvü, geologiya-mineralogiya elmləri doktoru

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

### Ekspert rəyi...

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya və Geofizika İnstitutunun Geotektonika və regional geologiya şöbəsinin rəhbəri, AMEA-nın müxbir üzvü, geologiya-mineralogiya elmləri doktoru Tələt Kəngərli bildirib ki, ölkəmizdə geoparkların yaradılması üçün geniş perspektivlər var:**

"Azərbaycanda geoparkların yaradılması üzrə ilkin addım hələ 2007-ci ildə atılıb. Belə ki, həmin il AMEA-nın Geologiya və Geofizika İnstitutunun təklifi ilə Bakı və Abşeron yarımadası palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğu yaradılıb. Bu istiqamətində növbəti addım cənab Prezident İlham Əliyev və ölkə hökuməti tərəfindən 2008-ci ildə atılıb, bununla əlaqədar Nazirlər Kabinetinin 22 avqust 2008-ci il 299 saylı Sərəncamı ilə "Azərbaycan Respublikasında nadir geoloji obyektlərin qorunması və davamlı istifadəsinə dair 2009-2012-ci illər üzrə Tədbirlər Planı" təsdiq edilib. Bu plan çərçivəsində Geologiya və Geofizika İnstitutu tərəfindən ölkənin ayrı-ayrı regionlarında geosaytların inventarizasiyası aparılmış və paleontoloji-stratiqrafik, tektonik, geomorfoloji, mineraloji-petroqrafik, hidroloji, hidrogeoloji və tarixi-dağmədən kateqoriyalı 484 geoloji obyektin varlığı aşkar edilib. Müəyyən edilib ki, UNESCKO-nun və ProGEO-nun tələblərinə cavab verən beynəlxalq səviyyəli milli parkların yaradılması baxımından Azərbaycan böyük potensiala malikdir. Bunlar, ilk növbədə Naxçıvan MR-in Şahbuz-Ordubad regionu, Abşeron yarımadasının Qırməki sahəsi, Cənub-Şərqi Qafqazın Xaltan və Qəbələ-İsmayıllı əraziləri, həmçinin Kiçik Qafqazın şimal-şərq yamacındakı Gədəbəy-Daşkəsən regionudur".

Mütəxəssis vurğulayıb ki, bu istiqamətdə dövlət səviyyəsində aparılan işlər təxminən 2 ilə yekunlaşa bilər: "Hazırda bununla bağlı müvafiq tədbirlər görülür. Geoparkların yaradılması ölkəyə turistlərin cəlb edilməsi baxımından da əhəmiyyətlidir. Bu gün dünyada təxminən 300-dən çox geoparklar fəaliyyətdədir. Müşahidələr onu deməyə əsas verir ki, bu parklara turistlərin böyük marağı var. Biz də ölkəmizin mövcud potensialından istifadə etməklə geoturizmin sahəsində ciddi nailiyyətlər əldə edə bilərik ".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə növbəti müddətə Azərbaycan Atletika Federasiyasının prezidenti seçilib. Yenidən qurum rəhbəri seçilən Hüseynzadə 2024-cü ilin sonunadək atletikaya rəhbərlik edəcək.

---

■ "Rusiya Prezidenti Vladimir Putinin Qazaxıstanın hazırkı Prezidenti Kasım-Jomart Tokayev və ölkənin keçmiş Prezidenti Nursultan Nazarbayev ilə isti münasibətləri var". Bunu jurnalistlərə açıqlamasında Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

---

■ Moda dünyasının ən məşhur və nüfuzlu şəxslərindən biri olan Andre Leon Telli 73 yaşında Nyu-York xəstəxanasında dünyasını dəyişib. ABŞ-ın "Vogue" nəşrinin keçmiş kreativ redaktorunun vəfatı barədə "The Hollywood Reporter" yazıb. Onun ölüm səbəbi açıqlanmayıb.

---



■ Azərbaycanda təqaüdə göndərilən generala yeni vəzifə verilib. Hafta.-az-ın Lent.az-a istinadən məlumatına görə, bu barədə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov müvafiq əmr imzalayıb. Əmrə əsasən, bir neçə gün əvvəl təqaüdə göndərilən polis general-mayoru Səfər Əliyev nazirin müşaviri təyin edilib.

---

■ ""Omicron"un yayılmasından sonra yeni ştamlar yarana bilər". Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus brifinqdə deyib. "Bu pandemiyanın başa çatacağı gün hələ uzaqdadır və "Omicron" ştamının dünyada inanılmaz şəkildə yayılması ilə yeni ştamlar yarana bilər", - deyə ÜST rəhbəri qeyd edib.

---

■ Ötən il Azərbaycanda baş verən yol qəzalarında ölən uşaqların sayı açıqlanıb. Bu barədə DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin ötən illə bağlı açıqladığı məlumatda bildirilib. Onlardan 13-ü 7 yaşına qədər, 36 nəfər 7 yaşından 16 yaşına qədər olanlardır. Qəzalarda ümumilikdə 706 nəfərin öldüyü bildirilib.

---



■ Ukrayna məhkəməsi eks-prezident Petro Poroşenkonun azadlıqda qalması barədə qərar verib. Kiyevin Peçersk Rayon Məhkəməsi şəxsi öhdəlik əsasında, şəxsiyyət vəsiqəsini məhkəməyə təqdim etməklə azadlıqda saxlanması barədə qərar verib. Xatırladaq ki, eks-prezident Petro Poroşenko dövlətə xəyanətdə ittiham olunur.

---

■ Böyük Britaniyanın müdafiə naziri Ben Vallas Rusiyanın öz sərhədində 100 minə yaxın hərbçini toplamasından sonra ölkəsinin Ukraynanı özünümüdafiə üçün qısa mənzilli tank əleyhinə raketlərlə təchiz etdiyini bildirib. Nazir britaniyalı hərbçilərdən ibarət kiçik bir komandanın da təlim keçmək üçün Ukraynaya göndəriləcəyini deyib.

# Minsk qrupunun missiyası sona çatıb



**"Təcrübə onu göstərir ki, Minsk qrupunun fəaliyyətsizliyi məqsədyönlü idi. Minsk qrupu məqsədli şəkildə Ermənistanı dəstəkləyidi".**

■ **Bunu hafta.az-a politoloq Firkət Sadıqov Prezident İlham Əliyevin Azərbaycan mediasına müsahibəsi zamanı ATƏT-in Minsk qrupunun hazırki və gələcək fəaliyyəti ilə bağlı suallara cavab verərkən toxunduğu məqamlara diqqət çəkərkən bildirib.** Politoloq hesab edir ki, o ölkəni dəstəkləyərək müxtəlif bəhanələr, təkliflər irəli sürülürdü. Bu təkliflərin arxasında, sadəcə olaraq, Dağlıq Qarabağ Qurumu Respublikasını qurmaq, yaratmaq məqsədi dururdu: "Hər halda, onlara ATƏT tərəfindən verilən mandata görə, bunlar bu münaqişəni həll etməli idilər. Bu münaqişəni həll etmək üçün əllərindən gələni etməliydilər, amma etmədilər. Əslində bütün fəaliyyətləri ona yönəlmişdi ki, məsələ açılmış vəziyyətdə qalsın. Biz onu da bilməliyik ki, Minsk qrupu üç dövlətdən ibarət bir qurum deyil. Orada 12 dövlətdir vaxtilə bu qrupu təşkil edən. Bu üç dövlət sadəcə olaraq həmsədrlərdir". Politoloq hazırda Rusiya, ABŞ və Avropa İttifaqı arasında yaranmış böyük ziddiyyələrə də diqqət çəkdi. Bildirdi ki, Ukraynayla bağlı son hadisələr də bu ziddiyyəti tam təsdiqləyir:

"Düşünürəm ki, onların missiyası sona yetib. Bunlar əgər bundan sonra da regionda nələrləsə məşğul olmaq istəyirlərsə, onda ilk növbədə yeni təkliflərini versinlər. Biz baxmalıyıq, onların gündəliyində hansı məsələlər durur, nəyə kömək edə bilərlər, post-münaqişə dövründə bunlar nə isə edə bilərlər? Bax, budur əsas məsələ. Yəni əgər real nəynənsə məşğul olmaq, kömək etmək istəyirlərsə, Soçi, Moskva, Brüssel görüşlərdən və bu görüşlərdə qəbul olunan qərarlardan sonra, qoy delimitasiya, demorkasiya məsələsinin həllində, yaxud sülh müqaviləsinin bağlanmasında köməklik etsinlər. Bunu etsələr, bəlkə 30 il ərzində qazandıqları biabırçılıq ləkəsini bəlkə öz üzərlərindən silə bildilər".

*"Bunu etsələr, bəlkə 30 il ərzində qazandıqları biabırçılıq ləkəsini bəlkə öz üzərlərindən silə bildilər*

***✍ Tahirə***

# "Xızı-Abşeron" Stansiyasının ölkəmiz üçün faydaları böyük olacaq

***"Bu gün ölkəmizdə "Yaşıl enerji" strategiyasına keçid prosesi uğurla icra edilir və genişmiqyaslı xarakter daşıyır. Bu istiqamətdə, artıq bir sıra iri layihələr yekunlaşdırılıb və ölkəmizin enerji təhlükəsizliyinin təmin olunmasında alternativ enerji əhəmiyyətli rol oynamaqdadır".***



■ **Bu fikirləri hafta.az-a Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib. Onun sözlərinə görə, işğaldan azad olunmuş ərazilərimizdə bu istiqamətdə xeyli iş görülməkdədir:**

"Burada günəş və külək enerjisindən geniş istifadə olunması nəzərdə tutulub. Bu layihələr Şərqi Zəngəzurun və Qarabağın enerji təchizatında kifayət qədər əhəmiyyətli rol oynacaq və bölgənin ekoloji sağlamlığına təkan verəcək. Yanvarın 13-də Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən 240 meqavat gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməli qoyuldu. Bu, ölkəmizdə ən böyük bərpaolunan elektrik stansiyası olaraq Azərbaycanın enerji təhlükəsizliyində mühüm layihədir. Layihə eyni zamanda məşğulluğun artmasında, sahə üzrə ixtisaslı kadrların yetişməsində, təbii qaza qənaət olunmasında böyük əhəmiyyət daşıyacaq. Həmçinin dünyanın tanınmış şirkətlərinin Azərbaycanda böyük məbləğ tələb edən iri layihələr icra etməsi ölkəmizdə bərqərar olan iqtisadi sabitliyi, əlverişli investisiya mühitini göstərir". "Təməlqoyma mərasimində çıxışı zamanı dövlətimizin başçısı cənab İlham Əliyev Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında olan əməkdaşlıqdan bəhs etdi. Həqiqətən də, iki ölkə arasında olan münasibətlər çox yüksək səviyyədədir. Səudiyyə Ərəbistanı hər zaman bütün müstəvilərdə ölkəmizin haqq işini müdafiə edib, hətta işğal siyasətinə görə Ermənistanla diplomatik münasibətlər qurmayıb. Həm işğal dövründə, həm də müharibə gedən vaxt biz bu mənəvi dəstəyi görmüşük. Bu ölkədən olan turistlərin də ölkəmizə marağı durmadan artmaqdadır. Pandemiyaya qədər hər il minlərlə turist ölkəmizə səyahət edib gəzməli-görməli yerləri ziyarət edirdilər. Pandemiya səbəbindən bəzi məhdudiyyətlərə baxmayaraq, ərəb turistlər yenə də ölkəmizə gəlməkdədir. Bütün bunlar ölkələrimiz arasında olan münasibətlərin daha da möhkəmlənməsində əhəmiyyətli rola malikdir", - Milli Məclisin deputatı qeyd edib.



Təhlil

# Bakı - Kiyev əməkdaşlığında





# Rusiya amili

## Azərbaycan "Moskva necə düşünəcək?" prinsipindən çıxış etmir

***Prezident İlham Əliyev bir neçə gün əvvəl Ukraynana rəsmi səfər etdi. Bu səfər ölkəmizin strateji tərəfdaşlarından birinin ətrafında Qərblə Rusiya arasında yaşanan gərginliyin fonunda reallaşdı. Hazırda bütün dünya Ukraynaya Rusiyanın hərbi müdaxilə edəcəyi, Qərbin baş verə biləcək istila fonunda Moskvanı ağır şəkildə cəzalandıracağı ilə bağlı xəbərlərlə çalxalanır. Belə bir ərəfədə Azərbaycan Prezidentinin Ukraynaya səfəri təbii ki, bir çox siyasi mərkəzlərin və paytaxtların diqqətindən yayınmayıb. Hafta.az olaraq səfərin əhəmiyyəti, Rusiyanın Ukrayna-Azərbaycan münasibətlərinə təsir imkanlarını araşdırmağa çalışdıq.***



**Elxan Şahinoğlu,**
"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq

*Azərbaycan prezidentinin Ukraynaya səfəri və Kremlin hədəf götürdüyü Zelenski ilə müzakirələr aparması Moskvanın xoşuna gəlmədi*

Azərbaycan Prezidenti İlham Əliyevin Ukraynaya səfərindən bir neçə gün keçsə də, səfərin aktuallığı hələ də diqqət mərkəzindədir və Kiyevdəki görüş və müzakirələri müxtəlif aspektlərdən şərh etmək mümkündür.

■ **Bu barədə hafta.az-a danışan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri politoloq Elxan Şahinoğlu maraqlı təhlillərlə çıxış edib. Politoloq Prezidentin Ukrayna səfərinin Rusiyanın Qərblə münasibətlərinin gərginliyi dövründə təsadüf etməsini xüsusilə qeyd edib.**

"Moskva Vaşinqton və Brüsseldən tələb edir ki, Ukrayna NATO üzvü olmasın və Ukraynada Qərbin hərbi bazaları olmasın. Vaşinqton və Brüsselin yanaşması isə belədir ki, Ukrayna müstəqil dövlət kimi hansı təşkilata üzv olmaq seçimində sərbəstdir. Moskva isə Kiyevin sərbəst seçim imkanını inkar edir və Ukrayna ilə sərhəddə təxminən 100 minlik qoşun yığıb. Qərbdə bu gün ən çox müzakirə olunan mövzu Rusiyanın Ukraynaya mümkün hərbi müdaxiləsidir. Belə bir məqamda İlham Əliyevin Kiyevə səfər edib Ukrayna Prezidenti Volodimir Zelenski ilə geniş müzakirə aparması və müxtəlif sənədlər imzalaması rəsmi Bakının Ukraynaya və bu ölkənin ərazu bütövlüyünə verdiyi dəstəyi ifadə edir. Eyni ilə Ukraynada da Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, bunu İkinci Qarabağ müharibəsi də göstərdi. Ukrayna Qarabağın yenidən qurulması prosesində iştiraka hazırdır. Bu Azərbaycan üçün əhəmiyyətlidir". Politoloq digər məqam kimi, Rusiyanın Kremlə yaxın mətbuatının İlham Əliyevin Ukraynaya səfərini görməzdən gəlməsinə diqqət çəkib. "Aydındır ki, Azərbaycan prezidentinin Ukraynaya səfəri və Kremlin hədəf götürdüyü Zelenski ilə müzakirələr aparması Moskvanın xoşuna gəlmədi. Ukrayna kimi Azərbaycan da xarici siyasətini necə formalaşdırması seçimində sərbəstdir. İlham Əliyevin Kiyevə səfəri göstərdi ki, Azərbaycan müstəqil xarici siyasətində "Moskva necə düşünəcək" prinsipindən çıxış etmir. Ukrayna ilə strateji tərəfdaşlıq münasibətləri Azərbaycanın milli və təhlükəsizlik maraqlarına cavab verir. Önəmli olan budur". E.Şahinoğlu digər əsas məqam kimi qeyd edib ki, bu gün Azərbaycanın Ukrayna ilə iqtisadi münasibətləri genişləndirməsinə ehtiyacı var. Belə ki, Ukraynanın münbit torpaqları var və bu torpaqlarda məhsuldarlıq yüksəkdir. Azərbaycan Ukrayna kimi yüksək məhsuldarlığa malik kənd təssərrüfatına malik olmaq istəyir. Azərbaycan özünü taxılla tam təmin edə bilmir. Bu sahədə Azərbaycan Ukrayna ilə əməkdaşlığını genişləndirəcək. Azərbaycan həm Ukraynadan taxıl ala, həm də Ukraynada münbit torpaqlarının bir hissəsini icarəyə götürüb taxıl əkə bilər. Kənd təssərrüfatının digər sahələrində də Ukrayna-Azərbaycan əlaqələrinin intensiuvləşməsinə ehtiyac var.

Politoloq Ukrayna Prezidentinin azərbaycanlı həmkarı ilə görüşdə maraqlı təkliflər irəli sürməsinə toxunub. Bu sırada GUAM-a üzv ölkələr arasında yeni iqtisadi layihələrin reallaşmasını və Ukrayna-Türkiyə-Azərbaycan üçlü ittifaqının yaradılmasını göstərmək olar. "Atlas" Araşdırmalar Mərkəzi Türkiyə-Ukrayna-Azərbaycan üçtərəfli formatının təsis olunmasını illər öncə təklif edib və bu, mərkəzin analizlərində əks olunub. Azərbaycan buvaxta qədər müxtəli üçtərəfli formatlar təsis edib. Bunlara misal olaraq Azərbaycan-Türkiyə-Türkmənistan, Azərbaycan-Türkiyə-İran və Azərbaycan-Türkiyə-Gürcüstan formatlarını göstərmək olar. Azərbaycan-Türkiyə-Ukrayna formatı da digərləri kimi işlək mexanizmə çevrilə bilər. Ukraynanın həm Türkiyə, həm də Azərbaycanla strateji əməkdaşlıq formalaşıb. Deməк, üç ölkənin lideri bir araya gəlib müxtəlif layihələri müzakirə edi bilərlər". E.Şahinoğlu hesab edir ki, Azərbaycan prezidentinin Kiyevə səfəri və iki ölkə arasında yeni sazişlərin imzalanması iki ölkə arasındakı münasibətlərdə yeni səhifə açmalıdır.

"Vladimir Zelenski prezident seçildikdən sonra Azərbaycana rəsmi səfər etsə də, İlham Əliyev bir daha ukraynalı həmkarını Bakıya dəvət etdi. İlham Əliyevin ardınca, Azərbaycan parlamentinin sədri Sahibə Qafarovanın və xarici işlər naziri Ceyhun Bayramovun da Ukraynaya səfərlərinə ehtiyac var. Onları da uzun müddətdir Kiyevə dəvət edirlər. İlham Əliyev Ukrayna ilə münasibətlərin inkişafında Rusiya amilini nəzərə almırsa, Azərbaycanın digər rəsmiləri də bu siyasətdən çıxış etməlidirlər. Azərbaycan Rusiya ilə siyasi və iqtisadi əməkdaşlığını davam etdirir. Ancaq bu amil Azərbaycanın Rusiyanın rəqib hesab etdiyi ölkə və ölkələrlə əməkdaşlığını genişləndirməsinə mane olmamalıdır.

Digər tərəfdən Azərbaycan hakimiyyətinin və cəmiyyətinin Rusiyanın Qarabağdakı fəaliyyəti suallar doğurur. Bu sualları İlham Əliyevin Kiyevə səfərindən bir neçə gün əvvəl səsləndirdi. Rusiya zəifləri sevmir, gücə hörmət edir. Ona görə də Azərbaycan güclü və müstəqil xarici siyasət həyata keçirməlidir ki, Kreml Azərbaycanın maraqları ilə hesablaşsın. Azərbaycan prezidentinin Ukraynaya səfəri məhz bu siyasətin tərkib hissəsinə çevrilməlidir". "Gərginlik sadəcə Rusiya-Ukrayna arasında deyil, həm də Rusiya-NATO və Rusiya-ABŞ arasında artıb. Əslində Rusiyanın NATO-ya təqdim elədiyi tələblər qəbuledilməz idi. Bu da onu göstərir ki, Rusiya özünün təzyiqlərini davam etdirərək ABŞ və NATO-nu Ukraynanın işğalı ilə qorxudur".



■ **Bunu hafta.az-a gərginləşən Rusiya-Ukrayna münasibətləri, eləcə də rus diplomatlarını Ukraynadan çıxarılması fonunda iki ölkə arasında yaranan müharibə alovu ilə bağlı açıqlamasında millət vəkili Asim Mollazadə deyib.** Onun sözlərinə görə mövcud gərginləyə baxmayaraq Rusiya ilə Ukrayna arasında müharibə olmayacaq. Deputat hazırda meydanda qarşılıqlı təzyiqlər siyasətinin olduğu qənaətindədir.

"Müharibə olsa bu böyük bir faciə olacaq. Həm beynəlxaq sahədə, həm də insan tələfatı baxımından hər iki tərəfdə itkilərin olacağı qaçılmazdır".

Azərbaycanla Ukraynanın münasibətlərinə gəlincə, A.Mollazadə qeyd edir ki, Ukrayna həmişə Azərbaycanın tərəfdaşı olub. Bu, həm GUAM çərçivəsində, həm də ikitərəfli münasibətlər fonunda inkişaf edib. Azərbaycan Prezidentinin Ukraynaya səfərinə toxunan deputat, nəticədə iqtisadiyyatın bir sıra



**Asim Mollazadə,**
millət vəkili

*Bütün dünyaya yaxşı bəllidir ki, Azərbaycan hər zaman öz tərəfdaşları ilə əməkdaşlığa hazırdır*

sahələrində çoxşaxəli əməkdaşlıqlarla bağlı sənədlər imzalandığını deyib.

"Bütün dünyaya yaxşı bəllidir ki, Azərbaycan hər zaman öz tərəfdaşları ilə əməkdaşlığa hazırdır və istənilən şəraitdə bu əməkdaşlığı davam etdirəcək. Bu, Gürcüstana da aiddir, Moldovaya da. Bilirsiz ki, Azərbaycan Prezidentinin Moldovanın yeni seçilmiş prezidenti ilə də görüşü olmuşdu. "Şərq Tərəfdaşlığı"nın Zirvə toplantısında da Azərbaycan Moldovaya özünün dəstəyini verdi". A.Mollazadə hesab edir ki, Azərbaycan GUAM üzvləri ilə özünün əməkdaşlığını daha da inkişaf etdirməlidir. "Bu mənada Rusiyanın Ukraynaya olan münasibətlərinin, Azərbaycanın Ukrayna ilə olan münasibətlərinə heç bir aidiyyatı yoxdur.

Uzun illər bu münasibətlər qurulub, inkişaf edir və inkişaf etməkdə davam edəcək. Eləcə də Rusiya ilə normal qonşuluq, tərəfdaşlıq siyasəti həyata keçirir. Bu əməkdaşlığın da Ukrayna-Azərbaycan əməkdaşlığına təsiri, aidiyyəti yoxdur".

✍ ***Tahirə***

### Yeri gəlmişkən...

*Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.*

*Telefon söhbəti zamanı Azərbaycan-Rusiya əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olunub, strateji tərəfdaşlıq əlaqələrinin perspektivləri müzakirə edilib. Dövlət başçıları son vaxtlar Rusiya-ABŞ arasında təmaslar, Qazaxıstanda vəziyyətin sabitləşməsi ilə bağlı məmnunluq ifadə ediblər, Ukrayna ətrafında gedən proseslər müzakirə olunub.*

*Azərbaycan və Rusiya prezidentləri regional təhlükəsizlik məsələləri ilə bağlı fikir mübadiləsi aparıblar.*

# Sağlam və perspektivli münasibətlər

***Prezident İlham Əliyevin Ukraynaya səfəri bir çox məqamlara görə olduqca əhəmiyyətlidir. Nəzərə alsaq ki, bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 ilidir.***



**Könül Nurullayeva,**
millət vəkili

Bu 30 il ərzində münasibətlərin inkişafı istiqamətində qarşılıqlı vacib addımlar atılıb. Tərəflər istər regional, istərsə də qlobal platformalarda bir-birini dəstəkləyib.

■ **Bu fikirləri hafta.az-a millət vəkili Könül Nurullayeva deyib: "İqtisadi və siyasi sahədə bütün imkanlar lazımınca dəyərləndirilib.**

Bu səfər, müzakirə olunan məsələlər, səslənən bəyanatlar iki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu bir daha təsdiqlədi. İmzalanan birgə bəyyannamə isə əlaqələrin yeni mərhələsində bir növ yol xəritəsi olacaq. Ən əsası isə budur ki, birgə sənəddə bir-birinin müstəqilliyinin, ərazi bütövlüyünün, suverenliyinin dəstəklənməsi bir daha əks olunur. Tərəflər bundan sonra da suverenlik və ərazi bütövlüyü məsələlərində dəstəyi davam etdirərək, beynəlxalq səviyyədə müəyyən edilmiş sərhədlərin qorunması üçün çalışmaqda olunması ilə bağlı əldə edilən razılaşlamalar da xüsusi əhəmiyyət kəsb edir. Xatırlatmaq yerinə düşər ki, yerli telekanallara müsahibəsində Prezident İlham Əliyev ərzaq təhlükəsizliyi məsəsləsi üzərində xüsusi dayandı və ölkəmizdə ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı ilə bağlı davamlı addımların atıldığını vurğuladı. Dövlətimizin başçısı, həmçinin xarici icarəyə açıq və münbit torpaq sahələrinin icarəyə götürülməsi, orada məhsulların yetişdirilərək ölkəmizə gətirilməsi məsələsinin mümkünlüyünü də qeyd edib. Bu baxımdan Ukraynada əldə edilən razılaşmalar yeni imkanlar yaradır. Təbii ki, ənənəvi əməkdaşlıq sahəsi olan energetika sahəsində

## Azərbaycan - Ukrayna əməkdaşlığı

maraqlıdır. O cümlədən Xəzər və Qara dəniz hövzələrində təhlükəsizlik məsələləri, terrorçuluğa qarşı birgə mübarizə daxil olmaqla istər regional, istərsə də qlobal çətinlikləri birgə araşdıraraq cavab həllərini hazırlayacaqlarını bəyan etdilər.

Siyasi dialoqla yanaşı, tərəflər arasında çox geniş iqtisadi gündəlik də mövcuddur. Azərbaycan və Ukrayna arasında ticarət dövriyyəsinin son 7 il ərzində ilk dəfə təxminən 1 milyard dollara çatması daha da stimul yaradır və bu son illər əməkdaşlığın bütün istiqamətlər üzrə dinamik inkişaf etdiyini bir daha təsdiqləyir. Üstəlik, pandemiyanın məlum iqtisadi fəsadlarına rəğmən iki ölkə arasında ticarət dövriyyəsi ötən il 20 faiz artıb. Kiyevdə aparılan müzakirələrdə isə tərəflər 2024-cü ilə qədər ticarət dövriyyəsini artırmaqda maraqlı olduqlarını bir daha bəyan etdilər. Bu mənada hər zaman aktual olan ərzaq təhlükəsizliyinin təmin yeni planlar var. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, enerji sahəsində əməkdaşlıqla bağlı hər hansı fikir ayrılığı yoxdur.

Bakı-Kiyev münasibətlərinin bu günki formatı bir daha təsdiqləyir ki, Azərbaycanın həyata keçirdiyi siyasət heç kimin əleyhinə yönəlməyib, bu siyasət yalnız konstruktiv əsaslara söykənir. Heç kimin daxili işlərinə qarışmamaq, qonşular və tərəfdaşlarla normal münasibətlərin inkişaf etdirilməsi bu siyasətin əsas xarakteridir. Azərbaycan yeni dünya düzənində təşəbbüs göstərən ölkələrdən biri, beynəlxalq aləmin məsuliyyətli üzvü, Qoşulmama Hərəkatının sədri kimi, bundan sonra da beynəlxalq hüququn aliliyini müdafiə edəcəyini bildirib.

Yalnız sülh və əməkdaşlıq tərəfdarı olan Azərbaycanın həm də etibarlı tərəfdaş olması ikitərəfli münasibətlərin müsbət dinamika üzrə inkişafını şərtləndirir".

✍ ***Azad***

# Tağıyevin heykəli ilə bağlı iradlara cavab

**"Əgər heykəl başqa bir formada olsaydı, onda da tənqidlər olacaqdı". Bunu mədəniyyət naziri Anar Kərimov APA-ya açıqlamasında deyib.**

A.Kərimov bildirib ki, Zeynalabdin Tağıyevin heykəli açıq müsabiqə yolu ilə hazırlanıb: "Açıq müsabiqədə bir çox layihə eskizləri təqdim edilmişdi. Ekspert komissiya seçimlərində çox səslə hazırkı əsər qalib gəlmişdi. Tənqidlərə gəldikdə isə tənqid hər zaman var. Əgər heykəl başqa bir formada olsaydı, onda da tənqidlər olacaqdı. Ona görə də biz çalışmalıyıq ki, hər tərəfin mövqeyini nəzərə alaq". Nazir özü heykəli bəyəndiyini vurğulayıb.

# 20 Yanvar əlillərinə maddi yardım ödənildi

**20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 20 Yanvar şəhidlərinin ailələrinə və 20 Yanvar əlillərinə birdəfəlik maddi yardım edilib.**

Hafta.az xəbər verir ki, bu kateqoriyalara aid ümumilikdə 333 nəfərin hər birinin bank hesabına 200 manat məbləğində birdəfəlik maddi yardım köçürülüb. Bakı şəhərində qeydiyyatda olanlar Beynəlxalq Bankın Bakı şəhərindəki istənilən filialına, digər şəhər və rayonlarda qeydiyyatda olanlar isə Beynəlxalq Bankın həmin ərazilər üzrə filiallarına şəxsiyyət vəsiqəsi ilə müraciət edərək birdəfəlik maddi yardımı almaq üçün bank kartlarını götürə bilərlər. Qeyd edək ki, digər sosial ödənişlərdə artımlar edildiyi kimi, bu birdəfəlik maddi yardımın məbləği də ötən ilə nisbətən 2 dəfə artırılıb.

# Dollar bahalaşarsa...

## Məzənnə



***Son günlər yerli banklar tərəfindən dolların alış qiymətinin artırılması manatın devalvasiya edəcəyi məsələsini yenidən gündəmə gətirib. Proqnozlara görə, dünyada baş verən proseslər fonunda manatın məzənnəsini inzibati yolla uzun müddətə qoruyub saxlamaq mümkün olmayacaq. Bu proses valyuta ehtiyatlarını əhəmiyyətli dərəcədə "əritdiyindən" hökumət gec-tez "üzən məzənnə"yə keçid edəcək. Qeyd edək ki, Prezident İlham Əliyev ötən həftə yerli telekanallara müsahibəsində manatın məzənnəsi ilə bağlı məsələlərə aydınlıq gətirib. Prezident deyib ki, hökumət bir neçə il bundan əvvəl çox ağır addımın atılmasına məcbur olub: "Manatın qiymətdən düşməsi insanların rifah halına mənfi təsir göstərmişdi. Amma o addımı biz mütləq atmalı idik. Əgər biz o addımı atmasaydıq, bütün valyuta ehtiyatlarımızı xərcləyə bilərdik. Onsuz da bu addımın gecikməsi ona gətirib çıxarmışdı ki, Mərkəzi Bankın valyuta ehtiyatları böyük dərəcədə tükənmişdi. Təqribən 10 milyard dollar vəsait manatın sabit saxlanmasına istifadə edilmişdi. Nəticə etibarilə Mərkəzi Bank manatı sabit saxlaya bilmədi və biz 10 milyard dollar valyutanı itirdik".***

Mərkəzi Bankın sədri Elman Rüstəmov isə 2021-ci ilin sonları ilə bağlı brifinqdə jurnalistlərin suallarını cavablandırarkən isə bunları bildirmişdi: "Biz manatı zorla tutub saxlaya bilmərik, manatın məzənnəsini inzibati yolla tənzimləmək mümkün deyil".

Bəs görəsən, hazırda manata təzyiqlər hansı səviyyədədir? Milli valyutanın hansı halda devalvasiyaya uğramaq təhlükəsi var? Manat inzibati yolla tənzimlənməsə, onun real qiyməti hansı həddə ola bilər? Hazırda manatın real qiyməti necədir?

■ **Məsələni hafta.az-a şərh edən sabiq millət vəkili, iqtisad elmlər doktoru Əli Əlirzayev bildirir ki, manatın məzənnəsini inzibati yolla tənzimləmək hökumətə heç də ucuz başa gəlmir:** "Əlbəttə, manata nisbətdə dollar bahalaşarsa, bu, bütün sahələrə təsir göstərəcək. Onsuz da bu gün infilyasiya sürətli həddə gedir. Əgər dollar bahalaşarsa, bu proses idarəolunmaz səviyyəyə çata bilər. Mən deyə bilmərəm ki, tənzimləmə siyasət nə vaxta kimi davam edəcək. Təbii ki, bu prosesin uzun müddət davam etməsi də müəyyən çətinliklər yaradacaq. Ümumilikdə bu siyasət düzgün siyasətdir. Bəziləri bu addıma etiraz etsə də, deməliyəm ki, manatın sərbəst buraxılması bütün təbəqələrə ciddi təsir edə biləcəyindən bu variantın seçilməsi daha məqsədəuyğundur. Manatın sabit saxlanılması daxili imkanlar hesabına həyata keçirilir. Biz bu neft gəlirləri ilə valyuta ehtiyatımızı artırırıq. Hələ ki, dünya bazarında Azərbaycan nefti büdcədə nəzərdə tutulduğu qiymətdən yüksək satılır. Bizim xoşbəxtliyimiz ondadır ki, biz dollar gətirən məhsul istehsal edirik".

> "
> *Manatın məzənnəsini inzibati yolla tənzimləmək hökumətə heç də ucuz başa gəlmir*
>
> *Məzənnənin dəyişməsi ciddi problemlərin ortaya çıxması deməkdir*



Ekspert vurğulayır ki, hansı ölkədə dollarla mübadilə prosesi çoxdursa, həmin ölkənin vəziyyəti ağırlaşır: "Əgər ölkə daxilində milli valyuta ilə alış-veriş aparılırsa, o ölkənin imkanları çoxalır. Biz də manatın nüfuzunu artırmaq üçün manatla istehsal olunan, manatla bazara çıxarılan məhsullar, həm də əmək haqqı elə olmalıdır ki, alıcılıq qabiliyyətini irəliyə aparsın. Yəni, xarici amillərdən asılı olmasın. Bunun üçün də bütün məhsullara olan tələbatımızı ödəməliyik. Əgər tələbatımızın 40-50 faizi xarici ölkədən gəlirsə, bu artıq dollardan asılılıqdır. Ona görə də biz manatın nüfuzunu qaldırmaq üçün istehsalımızı artırmalıyıq, manatı kəsib dövriyyəyə buraxmaqla iş bitmir. Məsələn, bu gün əməkhaqqını artırırıq, amma manatın dəyərini artırmırıq. Düzdür, bizdə siyəsət sosialyönümlüdür və hökümət çalışır ki, aztəminatlı ailələr, həssas qruplar bu proseslərdə, eləcə də infilyasiyadan daha az təsir görsünlər. Amma elə məhsullar var ki, onların qiymət artımı nüvə rolunu oynayır və şaxələnərək bütün sahələrə təsir edir. Tutaq ki, su, qaz, işıq. Bunların üzərində ciddi nəzarət olmalıdır. Son vaxtlar kommunal xərclər də əhəmiyyətli dərəcədə artıb. Razıyam ki, bəzi məhsullarla qiymət özü də idxal olunur. Əgər dünyada qiymət artırsa, məcbursan sən də qiyməti artırasan. Onu kompensasiya etmək üçün başqa imkanlardan istifadə etmək lazımdır".

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Ruslan Atakişyev deyir ki, son dövrlər FED-in apardığı siyasət dünyada dollarla bağlı yeni məsələlərin ortaya çıxması ilə nəticələnib:** "Bununla yanaşı olaraq Azərbaycanda manatın məzənnəsi "üzən məzənnə" olmadığına görə, bu gün manatın real məzənnəsi bəlli deyil. Bilirik ki, məzənnənin iki cür formalaşması yolu var. Birincisi, "təsbit olunan", ikincisi "üzən məzənnə"dir. Bu gün Azərbaycanda məzənnə "təsbit olunan" məzənnədir. Dövlət bunu öz ehtiyatları hesabına qoruyub və hazırkı məzənnədə qalmasına çalışır. Milli valyutaya təzyiqlər müxtəlif dövrlərdə həm artır, həm də azalır. Təbii ki, son dövrlər təzyiqlərin artdığını müşahidə edirik. Məsələ bundan ibarətdir ki, Azərbaycan hökuməti məzənnəni sabit saxlamağı strategiya olaraq qarşıya məqsəd kimi qoyub. Məzənnənin dəyişməsi ciddi problemlərin ortaya çıxması deməkdir. Bu gün manata azdan-çoxdan inam formalaşıb, bu inam zərbə altında qala bilər. Bank sektorunda mövcud olan stabilləşməyə təzyiq yarana bilər. Digər tərəfdən, Qarabağ bölgəsində abadlıq-quruculuq işləri aparılır. Bu prosesə investisiya cəlb etməyə çalışdığımız, xüsusən də qeyri-neft sektorunun inkişafına cəhd göstərdiyimiz bir vaxtda devalvasiyaya getmək sadaladığım məsələləri təzyiq altında qoyur. Ona görə risklərin qarşısını almaq üçün hökumət yenə də manata təzyiqlər olduğu halda, strateji ehtiyatlardan istifadə etmək hesabına prosesi nəzarətdə saxlayır. O vaxt devalvasiyaya gedilə bilər ki, artıq strateji ehtiyatlar və digər başqa yollarla manatı sabit saxlamaq mümkün olmasın. Hazırda yaxın dövr üzrə manat üçün belə bir risk yoxdur.

Onu da qeyd etməliyəm ki, bu gün dünyada risklər o qədər dəyişkəndir ki, artıq üzunmüddətli proqnozlar vermək mümkün deyil. Məsələn, əvvəl yaxın dövr olaraq 1-2 il nəzərdə tutulurdusa, indi 2-3 ay yaxın dövr hesab olunur. Risklər çoxalıb və 2-3 aydan sonra nə baş verəcəyini proqnozlaşdırmaq olmur. Tutaq ki, 2-3 ay sonra dünyada elə bir proses baş verə bilər ki, prosesləri idarə etmək çətin olar. Misal üçün, yaxın regionda münaqişə baş verə bilər. Bilirsiniz, Ukrayna bölgəsində də vəziyyət yaxşı deyil. O fonda da nəsə baş verə bilər. Ona görə prosesin uzunmüddətli proqnozlaşdırılması çətin məsələdir. Ümumilikdə yaxın dövr üçün manatın devalvasiyası gözlənilmir".

Manatın bugünkü real qiymətinə də toxunan ekspert bildirib ki, bununla bağlı konkret fikir ortaya qoymaq qeyri-mümkündür: "Bu barədə müxtəlif fikirlər var. Məsələn, manatın dollara nisbəti 2 manat, ya da 2 manat 50 qəpik olacaq və s. Bu barədə konkret rəqəm söyləmək çətindir. İqtisadiyyat reallıq istəyir və bəzi hallarda kimlərsə bu barədə rəqəm deyir, lakin burada sual doğuran bir məsələ var ki, Azərbaycan "üzən məzənnə"yə gedəcəkmi? Və ya bu addım atılacağı təqdirdə, müəyyən həddən sonra "əyləc" düyməsi basıla da bilər. Azərbaycanda situasiya belədir ki, nəyəsə gediləcəyi təqdirdə, əvvəlcədən təsbit olunur. Məsələn, biz 2016-cı ildə "üzən məzənnə"yə keçmişdik. Həmin dövrdə dollar 1 manat 95 qəpiyə çatanda hökumət dərhal "əyləcə" basdı və dollar 1,70 səviyyəsinə salındı. Ona görə də situasiyaya Azərbaycan üçün fərqli yöndən yanaşsaq daha yaxşı olar".

**Sevinc**

# Neft Fondunun gəlirləri 10 milyard dolları aşa bilər

## Energetika

***Dünya bazarında müşahidə olunan bahalaşma enerji daşıyıcılarının qiymətlərinə də təsirsiz ötüşməyib. Ötən iki illə müqayisədə 2022-ci ilin ilk ayında neftin yüksək qiymətlə satışına başlanılması bunun bariz nümunəsidir. Hazırda dünya birjalarında Azərbaycan neftinin 1barelinin qiyməti 85-90 dollar ətrafında dəyişir. Müsahibimiz Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanla enerji bazarındakı mövcud vəziyyəti, gələcək perspektivləri müzakirə etmişik.***



**İlham Şaban,**
Neft Araşdırmaları Mərkəzinin rəhbəri

***- İlham müəllim, yeni ilin ilk ayında Azərbaycan markalı neftinin 1 barrelinin qiyməti 90 ABŞ dollarını keçib. Neftin indiki qiyməti gözlənilən idimi?***

- Əslində bu qiymət gözlənilən idi. İlin ilk hərracında London birjasında qiymət 78 dollardan başlayıb. Bu müddətdə bu gün səhər elektron birjada "Brent" markalı neftin ən yüksək satış qiyməti 89,02 dollara satılıb. Düzdür, hazırda 88 dollardan da aşağı satılır. Ancaq istənilən halda bu rəqəm yüksək rəqəmdir. Və belə bir yüksək rəqəmin olması bazarda bir neçə faktorlardan qaynaqlanır. Birincisi, ondan ibarətdir ki, 2020- ci ildə neft ehtiyatlarının 20-30 dollara olduğu dövrdə özlərinə çox böyük ehtiyat yığmış ölkələr artıq neft ehtiyatlarını kifayət qədər azaldıblar. Neft tacirləri belə fikirləşirlər ki, ötən ilin təqribən avqust-sentyabr aylarında bu ehtiyatlar azalmağa başlayıb. Məhz qış dövründə intensiv olaraq neftdən ənənəvi enerjiyə tələbat artımı kimi mövcud ehtiyatlar daha çox azalmağa meyilli olacaq. Bu ölkələr ABŞ, Yaponiya, Çin, Cənubi Koreya, o cümlədən Türkiyədir. Yəni, bu ölkələr enerjiyə böyük vəsaitlər xərcləyirlər. Məsələn, Türkiyə 2021-ci ildə enerji resurslarının idxalına 55 milyard dollara yaxın vəsait xərcləyib. Çin isə təkcə neftin idxalına hələ öz neft ehtiyatlarından istifadə edə-edə 257 milyard dollar vəsait xərcləyib.Yaponiyada bu rəqəm 140 milyard dollar olub. Yəni, onlar öz rezervlərini də artırmağa başlayacaqlar.

Qiymət artımına təsir edən ikinci amil "Omikron" ştammı oldu ki, bu ştammla bağlı verilən həyəcanlı proqnozlar özünü doğrultmadı.Və dünya səhiyyəsi, dövlətlət bu xəstəliyi zərərsizləşdirə bildilər. Məlum oldu ki, 2020-2021-ci illərdəki kimi qapanmalara getməyə, sərhədləri bağlamağa ehtiyac yoxdur. Bu amil də bazara təsir göstərdi. Üçüncü amil isə dünyada ilin əvvəlindən müşahidə edilən hərbi-siyasi gərginliyin get-gedə artmasıdır. Məsələn, Səudiyyə Ərəbistanı ilə Yəmən arasında münaqişə oldu. Yəmən tərəfi Əbu Dabiyə pilotsuz uçuş aparatları vasitəsilə atəş açdı. Digər tərəfdən, Rusiya və Ukrayna arasında siyasi-hərbi gərginlik aradan qalxmayıb və s. Bu gərginliyin qaynar fazaya keçdiyi təqdirdə, bazarda təlatüm göz altına alınaraq neftin hazırkı qiyməti təqribən 15-20 dollar ətrafında məhz siyasi riskləri özündə ehtiva edir. Ona görə bu vəziyyət yumşaldığı təqdirdə, neftin qiymətinin aşağı düşməsini müşahidə edəcəyik.

***- İndiki şəraitdə neftin qısa, orta və uzun müddətli qiymətləri barədə nə demək olar? Bu il "qara qızıl"ın orta qiyməti nə qədər olacaq?***

- Baxmayaraq ki, noyabr-dekabr aylarında cari illə bağlı verilən proqnozlar 70 dollar ətrafındadır, hesab edirəm ki, neftə olan tələbatın 2019-cu il səviyyəsinə çatması fonunda neftin orta qiymətinin 75 dollar ətrafında olacağı daha real görsənir. Bildiyiniz kimi, bu ilin büdcə sənədində neftin 1 barellinin qiyməti 50 dollardan götürülüb. Təbii ki, neftin orta qiyməti 75 dollar civarında dəyişəcəyi təqdirdə, büdcə sənədində proqnoz edilən qiymət də artıqlaması ilə özünü doğruldacaq. Bizim bu ilki büdcəmiz həm də çox böyük kəsirlə proqnoz edilib və 3 milyard manatlıq proqnoz var. Neftin qiymətinin yüksək olması hökumətə imkan verir ki, makroiqtisadi stabilliyi və neft sektorunda büdcə daxilolmaları daha da artırsın, bu kəsri əlavə tədbirlər həyata keçirmədən öz öhdəliyini büdcə qarşısında yerinə yetirsin. Məsələn, ötən il neft sektorundan dövlət büdcəsinə 2,1 milyard manat vəsait daxil olub. Düzdür, bunu nə İqtsadiyyat Nazirliyi, nə hökümət elan etməyib. Ancaq rəsmi statistika əsasında bu qənaətə gəlmişəm və hesablamalarıma görə, proqnozdan 60 faizdən yuxarı göstərici əldə edilib. İndi də bu cür nailiyyət əldə etmək olar. Amma bir şeyi də yadda saxlamaq lazımdır ki, Azərbaycan idxaldan asılı olan ölkədir. Biz 10 milyard dollardan artıq idxala vəsait xərcləyirik. Bahalı enerji iqtisadiyyatı bazara bağlı olan ölkələrdə bütün mal və xidmətlərin bahalaşması deməkdir. Çünki enerji tələb edir və bahalı mal və xidmətləri biz idxal edirik. Bu o deməkdir ki, bir tərəfdən qazanırıq, digər tərəfdən onu xərcləyirik.

***- Ötən il dünya bazarında qazın qiyməti ilə bağlı rekord nəticələr qeydə alındı. Bu il vəziyyət necə olacaq? Ümumiyyətlə, Azərbaycanın neft və qaz sahəsindən əldə edəcəyi əlavə gəlir təxminən nə qədər ola bilər?***

- Əgər biz baxsaq görərik ki, ötən il ümumilikdə Dövlət Neft Fondu təqribən 7,4 milyarda yaxın neft-qaz sektorundan vəsait əldə edib. Bunun 6 milyard ətrafında "Azəri-Çıraq-Günəşli" dən, 800 milyondan çox vəsait "Şahdəniz"dən gəlib. Hesab edirəm ki, bu il bizim "Şahdəniz"dən ilk dəfə olaraq 1milyarddan çox vəsait qazanmaq imkanımız olacaq. Çünki həm ixrac həcmləri artacaq, həm də qiymət yüksək olacaq. Belə ki, orta boru kəməri var, ötən il may ayında indiki qiymət formalaşmışdı. İndi artıq ilin əvvəlindən Avropadan boru kəməri ilə qaz ixracının qiyməti 400 dollar ətrafındadır. Hətta bundan yüksək qiymətlər də var. Ona görə 2022-ci ildə ümumilikdə hesab edirəm ki, Neft Fondunun gəlirləri 10 milyard dolları aşa bilər. Və bu gəlirlərin struktunda sırf neft və qazın gəliri 8 milyarda çata bilər.

***- Qaz sahəsində ixrac həcmlərinin artırılmasından söz düşmüşkən, bu yaxınlarda Bolqarıstan tərəfi bəyan edib ki, Bolqarıstan Yunanıstanla qaz kəmərinin tikintisində ləngimələrə görə Azərbaycan qazını tam ala bilmir və itkilərlə üzləşir. Bu məsələnin məsuliyyəti kimin üzərinə düşür və sizcə, problem nədən qaynaqlanır?***

- Bu vəziyyətdə təbii ki, Azərbaycanın da itkisi var. Bolqarıstan hazırkı imkanlar çərçivəsində ötən il 320 milyon kubmetr qaz idxal edib. Bu il ən yaxşı halda, əgər boru kəməri istifadəyə verilərsə 500-600 milyon kubmetr qaz idxal edə bilər. Çünki Yunanıstan tərəfi deyib ki, 2022-ci ilin iyulun 1-nə qədər tikinti yubanır. Bu Yunanıstan ərazisindən TAP-dan Bolqarıstana gedən 120 kilometrlik bir boru kəməridir. Bunun da tenderi keçiriləndə konsolsium şəklində deyil, Yunanıstan şirkəti onun qalibi olub. Və indi belə iddialar da var ki, Yunanıstan hətta Rusiya ilə əlbir olub boru kəmərinin tikintisini məqsədli formada yubadırlar. Məsələn, 2018-ci ilin dördüncü rübünə hesablanmışdı ki, Trans-Adriatik Boru Kəməri Layihəsi (TAP) istismara verilsin. Ancaq real olaraq bu kəmər istismara 2020-ci ilin noyabrın 15-də hazır oldu. Yəni, bu kəmərin istismara verilməsi 2 il gecikdi.

Bu məsələdə də Yunanıstan tərəfi deyir ki, pandemiya olduğundan işləməyə işçi qüvvəsi yoxdur. Guya bu şəraitdə insanlara işləməyə məcbur edə bilməz. Və 2019-cu ildən tikintisi başlayan boru kəməri hələ də istismara verilmir. Halbuki onun tikintisini maksimum 6 aya yekunlaşdırmaq olar. Əgər proses bu qədər uzanırsa, gün kimi aydındır ki, burada iqtisadi deyil, siyasi faktorlar var. Buna Azərbaycan müdaxilə edə bilməz və prosesin yubanmasına görə də heç bir məsuliyyət daşımırıq. Çünki müqavilə Azərbaycan dövləti ilə deyil, Şahdəniz konsorsiumu və qazın alıcısı arasında imzalanıb.

Yəni, məhkəməyə gedilərsə və məhkəmənin qərarı ilə təzminat ödəmək məsələsi ortaya çıxarsa, bu iki qurum arasında olacaq. Yəni, Şahdəniz konsorsiumu və "Bulgargaz" arasında. Bu məsələnin Azərbaycan dövlətinə heç bir aidiyyəti yoxdur.

***- Bəs, "OPEC plus" ölkələri neftə olan tələbatın artması fonunda il ərzində hasilatın yenidən artırılmasına razılıq verə bilərlərmi?***

- Əlbəttə də bu barədə razılıq mümkündür. Çünki onlar bazarı mütəmadi olaraq monitorinq edirlər. Və monitorinqin nəticələri hər ayın əvvəlində energetika nazirlərinə təqdim olunur. Fevralın əvvəlində OPEK-in növbəti toplantısı olacaq. Amma onlar sadəcə bazardakı mexaniki qiymətə baxıb qərar qəbul etmirlər. Onlar ən aşağısı 3 ay sonra bazarda nələr yaşana bilər, nələr ola bilər və bazarda nə ola biləcəyinin iqtisadi-siyasi təhlilini aparırlar. Məhz həmin təhlildən sonra müvafiq qərar qəbul ediləcək.

**Sevinc**



■ **Sosial şəbəkələrdə valideynin uşaq evində tərbiyəçini döyməsi ilə bağlı videogörüntülər yayılıb.**

Daxili İşlər Nazirliyi də məsələyə münasibət göstərib. Qurumun Mətbuat Xidmətindən hafta.-az-a bildirilib ki, tərbiyəçi ilə valideyn arasında baş verən insidentlə bağlı yayılan görüntülər yanvarın 16-da Bakının Xətai rayonunda yerləşən 3 saylı uşaq evində qeydə alınıb. Hadisə ilə bağlı Xətai Rayon Polis İdarəsinin 34-cü Polis Şöbəsində təhqiqat başlanılıb. İnsidentin iştirakçısı olan uşaq evinin əməkdaşı G.Nağıyeva Polis Şöbəsinə dəvət edilərək onun izahatı alınıb.



■ **Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevin ölkənin Təhlükəsizlik Şurasına və Qazaxıstan Xalq Assambleyasına ömürlük sədrliyi ləğv edilib.**

Ölkə parlamenti bununla bağlı qanunvericiliyə dəyişiklikləri təsdiqləyib. Dəyişikliklər Qazaxıstan Xalq Assambleyasına və Təhlükəsizlik Şurasına ölkə Prezidenti Kasım-Jomart Tokayevin rəhbərlik edəcəyi ilə bağlı verilən qərara əsasən edilib.

Parlament tərəfindən təsdiqlənən qanun baxılması üçün Senata göndərilib. Xatırladaq ki, N. Nazarbayev Qazaxıstan Xalqı Assambleyasına sədrliyi Prezident Kasım-Jomart Tokayevə 2021-ci ildə, Təhlükəsizlik Şurasına sədrliyi isə ölkədə yanvar ayında baş verən iğtişaşlar zamanı təhvil verib.

Dövlət Məşğulluq Agentliyi

■ **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən məşğulluq xidmətlərinin icrasında həssas əhali qruplarına, o cümlədən əlilliyi olan şəxslərə üstünlük verilir.**

Nazirlikdən hafta.az-a verilən məlumata görə, 2021-ci ildə 1348 nəfər əlilliyi olan şəxs özünüməşğulluq proqramına cəlb edilib. Onlar üçün təlimlər təşkil olunub, təlimlərdə kiçik biznesin təşkili və idarəedilməsi üzrə bilik və bacarıqlara yiyələniblər. Həmin şəxslər proqram çərçivəsində seçdikləri sahələr üzrə mal və materiallarla təmin olunaraq öz təsərrüfatlarını qurub. Həmçinin, Agentlik tərəfindən ötən il 2850 əlilliyi olan şəxs əmək müqaviləsi əsasında münasib işlərlə təmin edilib.



■ **Tərtər rayonunda məktəbli qız qaçırılıb. APA-nın xəbərinə görə, hadisə rayonun Evoğlu kəndində qeydə alınıb. Kənd sakini 2005-ci il təvəllüdlü Ləman Əhmədova Ağdam rayon sakini Seymur Məmmədov tərəfindən qaçırılıb.**

Qızın ailəsi hadisə ilə bağlı polisə müraciət edib. Məsələ ilə bağlı DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan bildirilib ki, Tərtər Rayon Polis Şöbəsinə 2005-ci il təvəllüdlü qızın qaçırılması ilə bağlı müraciət daxil olub. İlkin araşdırmalar zamanı qızın ailə qurmaq məqsədi ilə öz istəyinə əsasən qaçdığı müəyyən edilib. Hazırda Tərtər RPŞ-də araşdırmalar davam etdirilir. Qızı qaçıran Seymur Məmmədovun iki dəfə evli olduğu və boşandığı bildirilir.

## Covıd - 19

# Səhiyyəmiz "omikron partlaması"na hazırdırmı?

***Bu** gün dünyada koronavirusun "omikron" ştammının sürətlə yayılması müşahidə edilir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) koronavirusun yeni ştammının digər variantlardan daha sürətli yayıldığını rəsmən təsdiqləyib və yoluxduruculuq qabiliyyətinin yüksək olduğunu bəyan edib. Proqnozlara görə, "omikron"un yoluxduruculuq qabiliyyətinin yüksək olması yoluxanların sayını əhəmiyyətli dərəcədə artıra bilər. Mütəxəssislər yeni ştam hesabına hər gün qlobal səviyyədə, orta hesabla, iki milyon yeni yoluxma hadisəsinin aşkarlanmasının ölkələrin səhiyyə sistemlərinə ciddi təzyiq göstərə biləcəyindən narahatdırlar.*



Bunu nəzərə alan bəzi ölkələr artıq virusla bağlı qaydaları sərtləşdiribməyə başlayıblar. Xatırladaq ki, COVID-19-un "omikron" variantı, artıq Azərbaycanda da aşkarlanıb. İlk gün Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə məlumatında ölkə xaricindən gələn şəxslərdən götürülmüş nümunələrin 12-də "omikron" variantının qeydə alındığı açıqlanıb. Məlumatda yeni ştammdan qorunmaq üçün əhali bədənin anticisimlərini yenidən yüksək səviyyəyə çatdırmağa imkan verən gücləndirici (buster) doza vurdurmaqla peyvəndlənməyə çağırılır.

*Bəs görəsən, Azərbaycanda "omikron"la mübarizə aparmaq üçün hansı işlər görülür? "Ölkə səhiyyəsi "omikron" təhlükəsinə hazırdırmı? Hazırda koronaviruslu xəstələr üçün nəzərdə tutulan çarpayı fondu nə qədərdir və onun doluluq səviyyəsi hazırda təxminən neçə faizdir? Koronavirusa yoluxanlar üçün neçə tibb müəssisəsi və tibbi personal ayrılıb? Bu say artırıla bilərmi?*



■ **Məsələ ilə bağlı hafta.az-a danışan tibb məsələləri üzrə mütəxəssis İlqar Hüseynli bildirir ki, koronavirusun bütün variantları ilə ən yaxşı mübarizə metodu vaksinasiyadır: "Azərbaycanda bu proses sürətlə aparıldı.** Əhali peyvəndləmə prosesinə çox yaxşı reaksiya verdi və prosesdə yaxından iştirak etdi. Hətta ölkə prezidenti yerli kanallara müsahibəsində üçüncü- "buster" dozanı vurdurduğunu bəyan etdi. Bu özü də əhali üçün əlavə stimul deməkdir. Yəni dünya ölkələri ilə müqayisədə Azərbaycan vaksinasiya prosesinə görə ön sıralarda dayanır. Düzdür, prosesin əvvəlində müəyyən neqativ hallar aşkarlandı, amma sonradan həmin hallar da aradan qaldırıldı. Artıq insanların şüurlu şəkildə prosesə hazır olduğu müşahidə edilir. "Omikron" ştammı ilə mübarizənin başlıca yolu da peyvənddir. Əgər bu variant nəzərdə tutulmayan səviyyədə sürətlə yayılarsa, müəyyən problemlər ortaya çıxa bilər. Fors-major hal baş verərsə, bizdə çarpayı fondu kifayət etməyə bilər. Burada bir məsələ var ki, ÜST mütəxəssisləri bu variantın yoluxduruculuq qabiliyyətinin yüksək olduğunu bildirsə də, öldürücülük qabiliyyətinin aşağı olduğunu bəyan edib. Hazırda Azərbaycanın özündə kütləvi virus peyda olub. Nəzəri cəhətdən şübhəli məqamlar var ki, bunların hamısı test olunmur. Yəni bəlli deyil ki, bu məhz "omikron"dur, ya "Omikron" deyil. Ümumən götürəndə cəmiyyətdə və dünya ictimaiyyətində "omikron"a qarşı bir az, belə deyək ölüm risklərinin azalması ilə bağlı arxayınlaşma var. Digər tərəfdən, bu arxayınlaşma həm də əhalinin böyük hissəsinin yoluxaraq immunitet qazanması, habelə peyvənd vurdurması ilə də bağlıdır. Ona görə də "omikron" insanlar üzərində hegemonluğunu göstərə bilmir. Buna görə də düşünürəm ki, sərt karantin rejimlərinə qayıtmağa, iri ticarət mərkəzlərinin fəaliyyətinin dayandırılmasına, iş yerlərinin bağlanmasına ehtiyac yoxdurəhHH".

> *Fors-major hal baş verərsə, bizdə çarpayı fondu kifayət etməyə bilər*

> *Bizdə 875 reanimasiya yerimiz var, onlardan 26 faizi doludur*

■ **Mövzu ilə bağlı Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) hafta.az-ın sorğusuna cavab olaraq qurumun ictimaiyyətlə əlaqələr şöbəsinin məsləhətçisi Elnarə Baxışova bildirib ki, hazırda tibb personalı koronavirusa yoluxmuş vətəndaşların müalicəsi üçün əllərindən gələni edirlər:**

"Tibb heyətimiz hərzamankı kimi koronavirusla mübarizəni uğurla davam etdirirlər. Sizin sualınızın digər hissəsi ilə bağlı isə cənab Prezident ötən gün jurnalistlərə verdiyi müsahibədə də ətraflı danışıb. Həmin hissəni diqqətinizə çatdırıram: Bütövlükdə hazırda 46 xəstəxanamız COVID xəstələrinin müalicəsi ilə məşğuldur. Hazırda bir çox ölkədə əsas problem xəstələrin sayı və çarpayıların çatışmazlığı ilə bağlıdır. Bizdə isə vəziyyət müsbətdir, hazırda 10 min çarpayı var, onlardan cəmi 10 faizi doludur. Yəni 9 min çarpayı boşdur. Allah eləməsin, əgər pandemiya daha geniş vüsət alsa, bizim kifayət qədər imkanımız var. Burada önəmli məsələ reanimasiya yerləri ilə bağlıdır. Bizdə 875 reanimasiya yerimiz var, onlardan 26 faizi doludur. Burada da kifayət qədər boş reanimasiya yerlərimiz var".

✍ ***Sevinc***

# Karantin çağırışları

## Cəmiyyət

*Son zamanlar artan COVID-19-a yoluxma statistikası və "omikron" ştammının sürətli keçicilik qabiliyyəti yaxın gələcəkdə yeni məhdudiyyətlərin tətbiq olunub-olunmaması məsələsini yenidən gündəmə gətirib.*



Qapanmalara getmək, SMS icazə sisteminin qayıtması və bir sıra fəaliyyət növlərinin bağlanması deməkdir. Bəs görəsən, ekspertlər nə düşünürlər? Ölkə yeni qapanmalara hazırdırmı? Ümumiyyətlə, buna ehtiyac varmı?

■ **Məsələ ilə bağlı hafta.az-a danışan psixoloq Orxan Oruc bildirdi ki, qapanmalar olarsa, əvvəlkilərə nisbətən indi əhali bunu psixoloji olaraq rahat qarşılayacaq. Hər kəsdə belə vəziyyətlərlə bağlı, artıq təcrübə var:**

"Əlavə olaraq onu deyim ki, 2020-ci ildə təkcə COVID-19-la bağlı qapanmaları deyil, həm də müharibə şəraiti ilə əlaqədar komendant saatlarını da gördük. Bu baxımdan, düşünürəm, insanlarda virusa qarşı hansısa immunitet yaranırsa, qapanmalarla bağlı psixologiya da formalaşa bilir. Həmin o "immunitet" sayəsində əhali gələcəkdə baş verə biləcək qapanmaları daha rahat, sakit və həyəcansız şəkildə keçirə bilər".

■ **İqtisadçı ekspert Fuad İbrahimov bu məsələdə psixoloq həmsöhbətimiz qədər pozitiv deyil. Onun sözlərinə görə, gələcəkdə tətbiq olunacaq hər hansı bir qapanma təzəcə dirçəlməkdə olan iqtisadiyyata ağır zərbə olar:**

"Biz tətbiq edilmiş məhdudiyyətlərin praktiki olaraq əkstəsirlərini yaşamışıq. Təkrar qapanma prosesi baş verərsə, sahibkarların bir qismi səbir və dayanıqlılıq göstərməyib, peşə dəyişikliyinə gedə bilər. Bu da gələcəkdə biznesin bəzi sahələrində boşluqlar yaradacaq. İnsanlarda belə fikir formalaşacaq ki, "məşğul olduğum fəaliyyət növü risklidir. Hər hansı epidemioloji və ya ekstremal vəziyyətlərdə işlərim dayandırıla bilir". Məlumdur ki, fəaliyyət dayananda işsizlik baş alıb gedir, bu, həm də borclanmaya səbəb ola bilir. Ümumilikdə isə sadaladığım amillər makroiqtisadi göstəricilərə mənfi təsir edir. Bazara əlavə olaraq yardımların atılması hökumətə, vergi daxilolmalarına təsir edib, büdcə xərclərini artırır".

> *İndi əhali bunu psixoloji olaraq rahat qarşılayacaq*

> *Təkrar qapanma olarsa, sahibkarların bir qismi peşə dəyişikliyinə gedə bilər*

> *Belə bir halda qapanmaya getməyin heç bir mənası yoxdur*

■ **Həkim infeksionist Vüqar Cavadzadə isə yeni yaranan ştammların xarakteristikasını nəzərə alaraq, gələcəkdə qapanmaların olmasına zərurət görmür:**

"Omikron ştamının yayılma sürəti COVID-19-a və "delta"ya nisbətən, təxminən, 4 dəfə çoxdur. Buna baxmayaraq, xəstəliyin ağırlıq dərəcəsi yüngüldür. "Omikron" ştammına yoluxan şəxslərdə sağalma qısa müddətdə həyata keçir və ağırlaşma halları yaşanmır.

Həm də "omikron" ştammına yoluxanlarda pnevmoniya 25% inkişaf edirsə, digər variantlarda bu göstərici daha yüksək idi. Bir sıra ölkələrdə aparılan tədqiqatlara görə, "delta" ilə nisbətdə "omikron"da ölüm halı 75% azdır. Belə bir halda qapanmaya getməyin heç bir mənası yoxdur.

Məktəbyaşlı uşaqlarda da həmçinin xəstəlik qısa müddətdə sağalır. Qorxu isə yanaşı xəstəliyi mövcud olan və yaşı ilə bağlı risk qrupuna daxil edilmiş şəxslər üçün var".

✍ ***Banu***

# Çörək, ət, indi də toyuq əti



**Bahalaşma davam edir**

> *Bəzi marketlərdə qiymətin qalxıb, digərlərində sabit qalmasına səbəb anbarlarda olan məhsulların köhnə qiymətə satılmasıdır*

## İstehlak

***Çörəyin qiymətinin qalxmasının ardından sosial şəbəkələrdə ətin də bahalaşacağı, hətta bəzi yerlərdə artıq mal ətinin kiloqramının 14 manata satıldığı kimi söz-söhbətlər dolaşmağa başladı. Həmçinin hazırda toyuq əti və heyvanmənşəli yemlərin də qiymət artımına getdiyi danışılır. Hafta.az məsələni yerindəcə araşdırıb vəziyyətlə tanış oldu.***

Bahalaşma ilə bağlı şəhərin bir neçə nöqtəsində yerləşən ət dükanlarına üz tutduq. Nəzərinizə çatdıraq ki, getdiyimiz bütün iribuynuzlu heyvan ətlərinin kəsilib-satıldığı yerlərdə qiymətlər ötən 3-5 ayda necə idisə, indi də elədir.

Yasamal rayonu ərazisində yerləşən ət kəsimi və satışı ilə məşğul olan dükanın sahibi Vüqar bəyin sözlərinə görə, hazırda onlarda qiymətlər sabitdir. Yemin qiyməti qalxdığına görə, ətin də 1 həftəyə, yaxud 1 aya bahalaşacağı istisna edilmir:

"Biz özümüz də bahalaşma ilə bağlı çox söz eşidirik. Qiyməti qaldıranlara isə rast gəlməmişik. İndidən qiyməti qaldıran işbazdan başqa bir şey deyil. Bizdə mal ətinin bir kiloqramı 10.50-yə satılır. "Araz" marketdə də əvvəlki qiymətlərdir. Orada da bahalaşma yoxdur. Ümumiyyətlə mənə maraqlıdır ki, mal əti harada 14 manata satılır?". Elə bu vaxt dükandakı müştəri satıcının sözünü kəsərək bildirdi ki, "Neftçilər" metro stansiyasının yaxınlığında yerləşən əksər ət kəsimi və satışı yerlərində qiymətlər bir neçə gündür ki, 14 manatdır: "Bilmirəm, nə məsələdir, amma bir yerdə qiymət 12-14 manat, başqa yerdə 10 manatdır. Çoxu da deyir, "Bizə heyvanlar rayonlardan gəlir, onlar baha satır, məcburən biz də əti baha verməli oluruq"".

Ardınca iri marketlərdən toyuq əti və mal ətinin qiymətlərini öyrəndik. Demək olar ki, baş çəkdiyimiz bütün ticarət obyektlərində qiymətlər elə əvvəlki idi. Kəsilmiş toyuq ətinin qiymətini soruşduğumuz xanım satıcı bildirdi ki, yeni ildən bahalaşma yoxdur, nə olsa, gələcək 1 həftə ərzində baş verəcək: "Bizdə ən son toyuq əti 5 ay öncə qalxıb. İndi də yemlər bahalaşıb, buna görə fikrimcə, yaxın günlərdə ətin də qiyməti qalxar". Araşdırmanın ardından belə qənaətə gəldik ki, hazırda mənşəyi eyni olan ət məhsulları fərqli satış obyektlərində fərqli qiymətlərə satılır.

Bəs görəsən, buna səbəb nədir? Ümumiyyətlə, yaxın gələcəkdə ət məhsullarının bahalaşması gözləniləndir?

■ **Məsələ ilə bağlı hafta.az-a açıqlama verən iqtisadçı ekspert Xalid Kərimli söylədi ki, yaxın günlərdə ətin qiymətinin qalxacağı istisna deyil:** "Hazırda dünya bazarında ərzaq məhsullarının qiyməti, orta hesabla, 30%-ə qədər artıb. Bura ət, yağ, süd, dənli bitkilər və s. qida məhsulları daxildir. Bahalaşmanın bir çox müxtəlif səbəbləri var. Bu həm pandemiya, həm də vergilərin, daşıma xərclərinin artırılması, dünya mərkəzi banklarının pul ucuzlaşdırma siyasəti ilə bağlıdır. Ətin maya dəyərinin əsas hissəsi yemdir. Yemin də tərkibinə baxanda görürük ki, onun bura daxil olan bütün komponentlər bahalaşıb. Hətta heyvanı ölkədə yetişdirsək belə, onların yeminin əsas hissəsi - arpa, buğda xaricdən idxal olunur. Belə olan halda yemin bahalaşması istisna deyil". Ekspertin fikrincə, ətin bahalaşması ilə bağlı süni qiymət artımından danışa bilmərik. Ona görə ki, bahalaşma üçün obyektiv səbəblər var:

"Bəzi marketlərdə qiymətin qalxıb, digərlərində sabit qalmasına səbəb anbarlarda olan məhsulların köhnə qiymətə satılmasıdır. Hansı ki, bu da müvəqqəti prosesdir. Yeni gələn məhsullar yeni qiymətlərlə satışa çıxarılacaq. Fikrimcə, biz 1 aya bazarda qiymətlərin eynilə şməsinə şahid olacağıq". Qeyd edək ki, hazırda marketlərdə mal əti ilə bağlı ortalama qiymət 10 manat 50 qəpik təşkil edir.

✍ ***Banu***

## Təhsil

# Xarici tələbələrin seçdikləri ali məktəblər

***2021-2022-ci tədris ili üzrə ölkəmizin ali və orta ixtisas təhsili müəssisələrində ilk dəfə 101 ölkədən 7400-ə yaxın əcnəbi və vətəndaşlığı olmayan şəxs təhsil alır. Bu barədə Təhsil Nazirliyinin yaydığı məlumatda bildirilib. Qeyd olunub ki, tələbələr əsasən Türkiyə, İran, Gürcüstan, Rusiya, İraq, Nigeriya, Suriya, Hindistan, Pakistan, Çin və digər ölkələri təmsil edirlər.***

Bəs, görəsən, xarici tələbələr Azərbaycanda daha çox hansı ali məktəbləri seçirlər? Onların Azərbaycandan əldə etdikləri diplomlar öz ölkələrində tanınırmı? Azərbaycan xarici tələbələrin sayına görə dünya ölkələri arasında neçənci yerdə qərarlaşıb?

■ **Məsələ ilə bağlı hafta.az-a danışan təhsil eksperti Kamran Əsədov bildirib ki, hazırda Azərbaycana oxumağa gələnlər arasında əsas yerdə Rusiya, Türkiyə, İran, Pakistan və Afrika ölkələrinin vətəndaşları dayanır:** "Xarici tələbələr əsasən, Bakı Dövlət Universitetini, Azərbaycan Tibb Universitetini, Bakı Ali Neft Məktəbini, Neft və Sənaye Universitetini seçirlər. Eyni zamanda, Azərbaycan Dövlət Aqrar Universiteti, Naxçıvan Dövlət Universiteti, İqtisad Universiteti də xarici tələbələrin maraq göstərdikləri ali məktəblər sırasındadırlar. Onu da qeyd edim ki, Azərbaycana oxumağa gələnlərin dipomları hazırda öz ölkələrində heç bir problem olmadan tanınır. Sadəcə olaraq onlar həmin ixtisas üzrə imtahan verməlidirlər. Yəni, yetərlilik imtahanı verirlər ki, həqiqətən də bu tələbələr oxuduqları müddət ərzində aldıqları təhsil zəruri biliklərin əldə edilməsinə imkan verib. Necə ki, Azərbaycan vətəndaşları xarici ölkələrdə təhsil alırlar və onların diplomları ölkəyə döndükdən sonra araşdırılır, təxminən eyni qayda xarici ölkələrdə də tətbiq olunur. Yəni öz ölkələrinin normativ-hüquqi aktları çərçivəsində onların bilik və bacarıqları yoxlanılır. Məsələn, Türkiyədə ixtisas bilikləri yoxlanılır, digər Avropa ölkələrində yetərli qədər Azərbaycanda olub-olmamaları araşdırılır və s.".

Ekspert onu da qeyd edib ki, Azərbaycan artıq bəzi ixtisaslar üzrə uyğunsuzluğu tamamilə aradan qaldırıb: "Tutaq ki, Tibb Universitetində müalicə işi ixtisası var. Bu ixtisası bitirən şəxs gedib Türkiyədə ona görə ekvivalentliyini müəyyənləşdirə bilmirdi ki, həmin ixtisasın adı uyğun gəlmirdi. Ona görə də həmin ixtisasın adını dəyişib tibb ixtisası etdilər. Məsələn, stomotologiya ilə bağlı heç bir problem yoxdur. Bu ixtisasın adı dünyanın bütün ölkələrində eynidir. Bizdə sadəcə ixtisasın adı, kreditin həcmi, təhsil müddəti və keçirilən fənlərlə bağlı problem yaranırdı. Hazırda bu sahədə heç bir problem yoxdur və uyğunsuzluqlar aradan qaldırılıb. Tutaq ki, bir tələbə təhsil müddəti ərzində 360 kredit yığmalıdır, lakin müşahidə edirik ki, bəzən Azərbaycan universitetlərinin məzunları 360 yerinə 340 kredit yığırlar. Bu da diplomun tanınması məsələsində problem yaradır".



K.Əsədov, həmçinin vurğulayıb ki, Azərbaycan xarici tələbələrin sayına görə dünyada ən aşağı yerdə qərarlaşıb: "Azərbaycandan xarici ölkələrdə oxumağa gedənlərin sayı 41 min nəfərdir. Onun təkcə 21 min 600 nəfəri qardaş Türkiyədə təhsil alır. 8 mini Ukraynada, Rusiya və Gürcüstanda 4 min nəfər oxuyur və s. Türkiyədə isə xarici tələbələrin sayı 180 min nəfərdir və bu rəqəmin 2025-ci ildə 250 minə çatdırılması hədəflənib. Amerikada oxuyan əcnəbi tələbələrin sayı isə 1 milyon nəfərdir və yaxud ərazisi Bakının yarısı boyda olan Sinqapurun iki universitetində xarici tələbə sayı 80 min nəfərdir. Eyni zamanda, qonşu Gürcüstanın özündə bizdən dəfələrlə çox xarici tələbə təhsil alır. Azərbaycana ona görə maraq göstərmirlər ki, bizdə xarici ölkə vətəndaşlarına təqdim edilən təhsil haqqının ən ucuzu 4 min manatdır. Tutaq ki, tibb ixtisaslarına Azərbaycan vətəndaşları 4000-4500 manat, xarici tələbələr isə 5000-6000 manat ödəyirlər. Axı, Türkiyədə bir ixtisas 300 manata, Gürcüstanda 400 dollara olduğu halda, əcnəbi tələbə niyə Azərbaycana gəlsin ki? Və yaxud xarici tələbə harada qalacaq? Bizdə ali təhsil müəssisələrinin yataqxanasımı var? Yəni, Azərbaycanda xarici tələbələr üçün təhsil haqqı qiyməti əlçatan deyil, yayayış yeri problem var, eyni zamanda, tədrisin ingilis dilində olan bölmələri keyfiyyətli deyil".

■ **Mövzu ilə bağlı digər təhsil eksperti Elçin Əfəndi isə hafta.az-a açıqlamasında deyib ki, son illər pandemiya ilə əlaqədar xarici vətəndaşların ayrı-ayrı ölkələrdə təhsil alması çətinləşib: "Bu vəziyyət təbii ki, Azərbaycana gələn əcnəbi tələbələrin sayına da mənfi təsir göstərdi.** Pandemiyadan əvvəlki dövrə baxsaq, bizdə bu sahədə vəziyyət elə də ürəkaçan olmayıb. Bunun da başlıca səbəblərindən biri bizim ali məktəblərin aparıcı universitetlərin reytinqinə düşə bilməməsidir. Eyni zamanda, universitetlərin böyük əksəriyyətinin yataqxanası, kampusu yoxdur. Həmçinin əcnəbi tələbələr üçün nəzərdə tutulan təhsil haqqı həddindən artıq yüksəkdir. Bizdə hazırda xarici tələbə sayı BDU-da, Tibb Universitetində, Xəzər Universitetində, Bakı Ali Neft Məktəbində daha çoxdur. Onların da əksəriyyəti Pakistan və Türkiyə vətəndaşlarıdır. Onlar əsasən, informasiya texnologiyaları, neft-qaz yönümlü ixtisaslardır".

✍ ***Sevinc***

# Xəzər deltasında göyqurşağı

## Ədib

*(Zaur Ustacın yeni kitabı haqqında)*

***Dilin gözəlliyi onun ilkinliyində, təravətində, kökündədir. Bu gün yazılan ədəbi mətnlərdə (istər poeziya, istər nəsr nümunələrində) sanki yad cisimlər dolaşır, dilin substansionallığı qondarma, hibrid sözlərə qurban verilir. İnsan əşyaları sözlər vasitəsilə tanıyır, özünü sözün batinindəki mənalarla formalaşdırır. Söz həm də arxetiplərin övladıdır. Bədii mətnlər arxetiplərdən sızan elementlərlə yaranır. Mən Zaur Ustacın formaca ənənəyə bağlı, məzmunca yeni şeirlərini oxuyanda şairin bu fikir akrobatlığı məni yaxşı mənada təəccübləndirdi.***

Şeir qeybdən bizə ötürülən xəbərlərdir, bu informasiyaları poetik düşüncələrlə süsləmək istedadın göstəricisidir. Zaur bəyin şeirlərində ustadlardan bizə əmanət qalan dastan estetikası səma pıçıltılarını öz içindən keçirərək yeni biçimdə XXI əsr oxucusuna təqdim edir. Zaurun bu kitabı, sanki sakit axan çayın coşub-çağlayan dənizə - Xəzər deltasına qovuşduğu yerdir.

Hissin, duyğunun müxtəlif çalarları, rəngləri bu şeirlərdə göyqurşağı kimi birləşir. Şeirlərdən alınan təəssüratları ümumən bu cür ifadə etmək olar: Xəzər deltasında göyqurşağı.






**Çiçək açsa, haçan həyat ağacın,**
**Yaz çağındır, o çağını yaza yaz!**
**Qan qaynasa, qışın oğlan çağında,**
**Qışa deyil, o çağını yaza yaz...**
**Araz dağdır, haldan hala hal eylər,**
**Sakit axar, eldən elə yol eylər,**
**Dost-aşina, taydan taya əl eylər,**
**Ayaq açsa, o çağını yaza yaz!**

Bu misralar "Şahi-cahan" şeirindəndir. Şair "kamera"sını (poetik görüm bucağı) Araza tuşlayıb, bu kamerada Araz çayının coğrafi təyinatından əlavə milli identifikasiyasına da işarələr sezmək mümkündür.

Milli Qəhrəman İlqar Mirzəyevin xatirəsinə həsr olunmuş şeirdə bu iki misra məni tutdu:

**Özün getdin yuxuya,**
**Milyonları oyatdın...**

Olduqca tutumlu ifadədir, yaddaşa həkk olunur. Həqiqətən, İlqar Mirzəyev, Mübariz İbrahimov, Polad Həşimov kimi oğullar Zaur bəyin təbirincə desək, "yuxuya" getsə də xalqın milli şüurunun oyaq qalması üçün canlarından keçdilər.

**Başlanan yol qapından,**
**Şuşayadək uzandı...**
**Vətən oğlun itirdi,**
**Torpağını qazandı...**

Can-torpaq qiyaslanması şeirdə orijinallığı ilə seçilir, yadda qalır. Şəhadət məqamına yetişən əsgər Vətənə, Vətənin şəklinə çevrilir, Vətənləşir. İnsan yoxdursa, Vətən də yoxdur, Vətən yoxdursa, insan da mövcud deyil. İnsanı ayaqda saxlayan üstündə durduğu torpaqdır.

"Ana" torpaq ifadəsi əbəs yaranmayıb. Hamımız onun bağrından qopmuşuq, sonda yenə də onun qucağına düşəcəyik. Bu qəbil şeirlər Vətən sevgisinin əlifbasıdır. Vətən sevgisi imanla müqayisə olunur. İmansız adam üçün Vətən anlayışı yoxdur. Bu anlayışların konkretləşməsində poeziya çox böyük rol oynayır.

Səməd Vurğunun "Azərbaycan" şeirini xatırlayın. Uşaqların ürəyinə Vətən sevgisini bu şeirlə toxum kimi əkmişik. Abbas Səhhətin "Vətən" şeirini yada salaq. "Vətəni sevməyən insan olmaz, olsa ol şəxsdə vicdan olmaz". Ana südü kimi qanımıza hopan bu şeirlər zaman-zaman içimizdəki yurd sevgisini körükləyib.

Zaur Ustacın şeirlərini fərqləndirən həm də bu komponentlərdir. Həmin komponentlər dilin folklor qatından mayalanaraq həmin şeirlərin sanbalını, çəkisini birə beş artırır. Ədəbi genetika burada öz sözünü deyir. Zaur bəy estafeti öz sələflərindən alıb gənc nəsilə ötürür. Bu mənada şairlər, qələm adamları keçmişlə gələcək arasında möhkəm körpülər quran körpüsalanlardır.

"Xəzər deltasında göyqurşağı" adı altında toplanmış bu şeirləri bircəbircə təhlil etmək fikrim yoxdur. Bu şeirlərdə 44 günlük Vətən savaşının da izləri var, didaktikanın ötəsində olan misralar da var, şəraitin diktə etdiyi (gərəkli və lazımlı!) pafos da var. Rənglər spektrində qovuşan hislər, duyğular oxucunun qan yaddaşına xitab edir.

Qələm dostuma yaradıcılığında uğurlar arzulayıram! Özü demiş, "bu yol ərənlər yoludur". Yolun uğurlu olsun, Zaur Ustac!

*✍ Kənan Hacı*

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏYİNATI



Prezident İlham Əliyev səhiyyə nazirinin vəzifələrini icra edən Teymur Musayevlə bağlı Sərəncam imzalayıb. Sərəncama əsasən, o, səhiyyə naziri təyin edilib. Dövlət başçısının digər sərəncamı ilə Teymur Musayev səhiyyə nazirinin birinci müavini vəzifəsindən azad edilib.

### Həftənin İŞ TƏKLİFİ



BMT-nin Baş katibi Antonio Quterreş Almaniyanın sabiq Kansleri Angela Merkelə BMT strukturunda yüksək səviyyəli müşavir olmağı təklif edib. Bu barədə məlumatı öz mənbələrinə istinadən "DPA" agentliyi yayıb.

Məlumata görə, Quterreş Merkelə bu təklifi ilə bağlı məktub göndərib. Sabiq Kansler hələ ki, cavab verməsə də, BMT əmindir ki, Merkel təklifi qəbul edəcək.

### Həftənin ETİRAZI



Fransa Prezidenti Emmanuel Makronun həyat yoldaşı Bricit Makron transgender olması barədə mediada yayılan məlumatlara münasibət bildirib. Fransanın birinci xanımı bu barədə "RTL France" radiostansiyasının efirində danışıb. O qeyd edib ki, haqqında yayılan bu məlumat feykdir. B. Makron bildirib ki, onun transgender olması ilə bağlı yalan şayiələr yayan şəxslər internetdə onun ailə şəcərəsi barədə məlumatları dəyişiblər. Onun sözlərinə görə, burada söhbət onun valideynlərinin şəcərəsindən də gedir və bu, yolverilməzdir.

### Həftənin SOLĞUNU



"Erməni diasporu özünə qarşı biganə olmağa, Ermənistanla bağlı məyus olmağa başlayıb". Bunu Böyük Kilikiya Evinin katolikosu I Aram Feysbuk səhifəsində yazıb. O, 2022-ci ilin niyə Diaspor İli elan edildiyini izah edib. "Belə bir bəyanatla çıxış etmək üçün əsaslı səbəblərim var, çünki diaspor kiçilməyə başlayıb. Diaspor solmağa başlayıb. Diaspor özünə qarşı biganə olmağa, məyus olmağa başlayıb.

Xüsusən də Qarabağ müharibəsindən sonra. Gənclər həyatımızdan, kollektiv həyatımızdan, qurumlarımızdan getməyə başlayıb. Erməni həyatında əcnəbinin olması əhəmiyyətli olmağa başlayıb. Biz ətrafımızda baş verən dəyişikliklərlə ayaqlaşa bilməmişik".

### Həftənin ƏN YAXŞISI



FIFA 2021-ci ilin ən yaxşı futbolçusunu açıqlayıb. Bu ada Almaniyanın "Bavariya" klubunun hücumçusu Robert Levandovski sahib olub. Polşalı forvard ardıcıl ikinci dəfə dünyanın ən yaxşı oyunçusu seçilib. O, səsvermədə Fransa PSJ-sindən Lionel Messi və İngiltərə "Liverpul"undan Məhəmməd Salahı geridə qoyub. Ötən il 69 qol vuran R.Levandovski "Bavariya" ilə Almaniya Bundesliqasının və kuboku yarışının qalibi olub.

### Həftənin AŞPAZI



Dünyaca məşhur model Bella Hadid instaqram hesabında maraqlı görüntülər paylaşıb. Fələstin-Niderland əsilli amerikalı ulduz aşpazla bərabər dolma bişirib. Model yarpaq dolması büküb. O, həmçinin badımcan və bibər dolması hazırlayıb.

### Həftənin ƏN YAŞLISI

İspaniyada yaşayan və "Ginnesin Rekordlar Kitabı"na görə dünyanın ən yaşlı adamı olan Saturnino de la Fuerte 113 yaşına az vaxt qalmış vəfat edib. Bu barədə İspaniyanın EFE xəbər agentliyi məlumat yayıb. Qeyd edilib ki, evində dünyasını dəyişən Saturnino De la Fuertenin fevralın 12-də 113 yaşı tamam olacaqdı. Xəbərdə De la Fuertenin 10 sentyabr 2021-ci ildə 112 yaş 211 günlük yaşı ilə "dünyanın ən yaşlı kişisi" olaraq "Ginnesin Rekordlar Kitabı"na düşdüyü qeyd edilib.

*✍ Azad Əliyev*

# "Nar+" tətbiqi yeniləndi!



**Hesab üzərində bir çox əməliyyatları yerinə yetirməyə imkan verən "Nar+" tətbiqinə abunəçilərin rahatlığı üçün yeni funksiyalar əlavə edilib.**

Belə ki, istifadəçilər artıq "mənə zəng et" və "pul sorğusu" əməliyyatlarını əlavə SMS göndərmək ehtiyacı olmadan, tətbiq üzərindən asanlıqla yerinə yetirə biləcəklər. Bunun üçün ana səhifədən "kömək üçün sorğu" bölməsinə daxil olub lazım olan sorğu növünü seçərək qarşı tərəfin nömrəsini daxil etmək kifayətdir.

Xatırladaq ki, "Nar+" tətbiqi hesabı daha asan idarə etməyə və bir çox mühüm əməliyyatları bir neçə saniyədə yerinə yetirməyə imkan verir.

Bu tətbiqlə abunəçilər tariflər haqqında məlumat əldə edib, özlərinə ən uyğun tarifə qoşula, mövcud tarifi dəyişə, yeni internet paketi sifariş edə, bonuslarını yoxlaya və yeniləyə bilirlər. Abunəçilər müxtəlif sorğuları ilə bağlı onlayn çat xidmətinə də müraciət edib suallarını ünvanlaya bilərlər. Qeyd edək ki, ötən illə müqayisədə tətbiqdən yararlanan "Nar" abunəçilərinin sayı 80% artıb. Yenilənmiş "Nar+" tətbiqini AppStore və PlayStore-dan yükləmək mümkündür.

# Mingəçevir Dövlət Universitetində Kimya laboratoriyası açılıb

***Mingəçevir Dövlət Universitetində (MDU) Kimya laboratoriyasının açılışı olub. Mühəndislik fakültəsinin Fizika və ekologiya kafedrasının nəzdində fəaliyyət göstərəcək laboratoriyanın açılışı mərasimində professor-müəllim və tələbə heyəti, MDU İctimai Nəzarət Şurasının üzvləri və tərəfdaş sənaye müəssisələrinin nümayəndələri iştirak ediblər.***

Hafta.az xəbər verir ki, universitetdən bildirilib ki, əlamətdar hadisə münasibətilə əməkdaşları və tələbələri təbrik edən MDU-nun rektoru Şahin Bayramov Kimya laboratoriyasının tədrisin məzmununun təkmilləşdirilməsi baxımından əhəmiyyətindən bəhs edib. Mühəndislik profili üzrə yüksəkixtisaslı kadr hazırlığı istiqamətində universitetdə həyata keçirilən tədbirlərdən danışan rektor laboratoriyanın tələbələrin praktiki bilik və bacarıqlarının inkişafına mühüm töhfələr verəcəyinə əminliyini bildirib.

Kimya laboratoriyasının yaradılmasında əməyi keçənlərə təşəkkür edən Ş.Bayramov qısa müddətdə ərsəyə gələn laboratoriyanın təqdim etdiyi texniki-təcrübi imkanlar barədə məlumat verib. Tələbə və müəllimlərə uğurlar arzulayan rektor yeni dövrün universitetinə çevrilməyi hədəfləyən MDU-nun maddi-texniki bazasının gücləndirilməsi sahəsində yaxın gələcəkdə reallaşdırılması nəzərdə tutulan layihələrdən danışıb. Son dövrlər MDU-da tədris və elmi fəaliyyətin inkişafı istiqamətində görülən işlərdən məmnunluğunu ifadə edən "Azərbaycan İES" MMC-nin direktoru Təhmasib Hüseynov Kimya laboratoriyasının istifadəyə verilməsi münasibətilə universitetin rəhbərliyini, əməkdaşlarını və tələbələrini təbrik edib. Əmək bazarının tələblərinə uyğun kadr hazırlığı sahəsində MDU-nun rolundan bəhs edən T.Hüseynov Mühəndislik fakültəsinin tələbə və əməkdaşlarını yeni laboratoriyanın təqdim etdiyi imkanlardan faydalanmağa dəvət edib. Açılış mərasimində çıxış edən MDU İctimai Nəzarət Şurasının üzvləri Ədalət Quliyeva, Mirsədi Daşdəmirov və Esmira Hidayətova yeni laboratoriyanı universitetin növbəti uğuru kimi dəyərləndiriblər və səmimi təbriklərini çatdırıblar.



Sonra Mühəndislik fakültəsinin dekan əvəzi Almaz Əliyeva, Fizika və ekologiya kafedrasının müdiri Təranə Yusibova, kafedranın dosentləri Adil Aslanov və Məhyəddin Mehdiyev çıxış edərək yeni laboratoriyanın qısa müddətdə yaradılmasına görə universitet rəhbərliyinə təşəkkürlərini bildiriblər. Çıxışlarda yeni laboratoriyanın yalnız kimya istiqaməti üzrə deyil, fizika və ekologiya istiqaməti üzrə də müvafiq fənlərin tədrisi baxımından faydalı olacağını vurğulayıblar. Laboratoriyada keçiriləcək praktiki seminarlardan bəhs edən əməkdaşlar magistrantların, laborant və gənc müəllimlərin inkişafı üçün yaradılan şəraitdən məmnunluqlarını ifadə ediblər. Bildirilib ki, Kimya laboratoriyası tipləmə üsulu ilə müxtəlif maddə qarışımlarının alınması, reaksiyanın sürətinin hesablanması, spesifik tədqiqatların yerinə yetirilməsi, texniki və elmi təcrübələrin aparılması üçün zəruri avadanlıqlarla təchiz olunub.

Sonda Mühəndislik fakültəsinin tələbələri müxtəlif kimyəvi elementlərin qarışdırılaraq reaksiyaya girməsi və yeni məhlulların alınması ilə bağlı nümunələr nümayiş etdiriblər.

Qeyd edək ki, maddi-texniki və laboratoriya bazasının gücləndirilməsi, tələbə və magistrantların nəzəri biliklərlə yanaşı zəruri praktiki bacarıqlar da qazanması MDU-da diqqət mərkəzində saxlanılır.

Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Telefon söhbəti zamanı Azərbaycan-Rusiya əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olunub, strateji tərəfdaşlıq əlaqələrinin perspektivləri müzakirə edilib. Dövlət başçıları son vaxtlar Rusiya-ABŞ arasında təmaslar, Qazaxıstanda vəziyyətin sabitləşməsi ilə bağlı məmnunluq ifadə ediblər, Ukrayna ətrafında gedən proseslər müzakirə olunub. Azərbaycan və Rusiya prezidentləri regional təhlükəsizlik məsələləri ilə bağlı fikir mübadiləsi aparıblar.

## GÜNÜN FOTOSU



Mexiko sitidə katolik kilsəsi...

## Parlament rus sülhməramlılara status verməməlidir

**Natiq Cəfərli,**
politoloq

Rusiya Qarabağdakı qondarma qurumu de-fakto tanıyıb ermənilərin ordan köçməsini əngəlləyir. ▸▸ Səh. 3

## STATİSTİKA



■ Dubayda yerli sakinlər bir günlük isrtirahətə 140 dollar xərcləyir və həftədə 46 saat işləyirlər.

■ Sidneydə sakinlərin 60 faizi aktiv həyat tərzi sürür və idmanla məşğul olur.

■ Berlin sakinlərinin 80 faizi öz qonşularını tanıyır və onlarla ünsiyyət qurmaqdan çəkinmir.



▸▸ Səh. 7

# Çörək, ət, indi də toyuq əti